Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 141 (8164) ÇƏRŞƏNBƏ, 3 iyul 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Azərbaycan növbəti beynəlxalq tədbirə evsahibliyi edir

## UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakıda keçirilməsi ölkəmizin yüksək qlobal nüfuzunun təsdiqidir

İyun ayında Bakı bir neçə beynəlxalq tədbirə evsahibliyi etdi. İyunun 20-21-də Milli Məclisdə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisi (QDİƏT PM) Baş Assambleyasının 53-cü plenar sessiyası, iyunun 24-26-da Heydər Əliyev Mərkəzində BMT-nin Dövlət Xidmətləri Forumu keçirildi. İyunun 30-dan isə paytaxtımızda UNESCO-nun (BMT-nin Təhsil, Elm və Mədəniyyət üzrə Təşkilatı) Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası start götürdü.

Ümumdünya İrs Komitəsinin 42-ci sessiyasında qəbul edilmiş qərara əsasən, Azərbaycan bu mötəbər qurumun növbəti sessiyasına evsahibliyi etmək hüququ əldə edib. Azərbaycan üçün mühüm əhəmiyyətə malik belə bir qərarın qəbul olunması ölkəmizin UNESKO ilə tərəfdaşlıq münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyini göstərir. Prezident İlham Əliyev iyulun 10-dək davam edəcək sessiyanın Bakıda layiqincə keçirilməsini təmin etmək məqsədilə müvafiq sərəncam imzalayıb və Təşkilat Komitəsi yaradılıb. Prezidentin başqa bir sərəncamı ilə sessiyada iştirakla əlaqədar Azərbaycana gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurları sadələşdirilib. Beləliklə, UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakıda yüksək səviyyədə keçirilməsi təşkil olunub.

UNESKO-nun məramı dünyada ölkələr arasında adından da göründüyü kimi elm, təhsil və mədəniyyət sahələrində əməkdaşlıq körpüsü salmaqdır. Məqsəd beynəlxalq miqyasda sülhə və təhlükəsizliyə töhfələr verməkdir. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra əksər mötəbər beynəlxalq təşkilatlarla olduğu kimi UNESKO ilə də əməkdaşlığa başlayıb. Artıq 27 ildir ki, respublikamız UNESKO ilə fəal əməkdaşlıq həyata keçirir.

Bu təşkilatla Azərbaycan arasında əlaqələrin təməlinin qoyulmasında xalqımızın Ümummilli Lideri Heydər Əliyevin böyük xidmətləri var. Ulu Öndər 1993-cü ilin dekabrında Fransaya səfəri zamanı UNESKO-nun Baş direktoru ilə görüşü zamanı Azərbaycanla bu təşkilat arasında əlaqələri müzakirə edib. Təşkilatın qaydalarına görə, üzv dövlət təhsil, elm və mədəniyyətlə məşğul olan qurumların fəaliyyətini bu təşkilatın işi ilə əlaqələndirmək üçün ilk növbədə Milli Komissiya yaratmaq yolu ilə müvafiq tədbirlər həyata keçirməlidir. Ulu Öndər Heydər Əliyev Fransaya səfərdən sonra, 1994-cü il fevralın 21-də UNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası yaradılması barədə sərəncam imzalayıb.

Prezident İlham Əliyev də bu mötəbər təşkilatla əlaqələrin inkişaf etdirilməsinə böyük diqqətlə yanaşır. 2004-cü ilin sentyabr ayında Azərbaycanın UNESKO yanında Daimi Nümayəndəliyi təsis edilib. 2006-cı ildə isə ölkəmiz UNESKO-nun "Qeyri-maddi mədəni irsin qorunması haqqında" Konvensiyasını təsdiq edib.

Bu gün Azərbaycanla UNESKO arasında sıx əməkdaşlıq münasibətləri mövcuddur. Təbii ki, bu qurumlar əlaqələrin son illərdə yüksələn xətlə inkişafında, möhkəmləndirilməsində, milli-mədəni irsimizin UNESKO xətti ilə bütün dünyada təbliğində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın xidmətləri əvəzsizdir. 1995-ci ildən etibarən rəhbərlik etdiyi Azərbaycan Mədəniyyətinin Dostları Fondunun xətti ilə festivallar, sərgilər, mədəniyyət tədbirləri və konsertlər təşkil etməklə, xanım Mehriban Əliyeva ölkəmizin mədəni irsinin təbliğinin, onun milli və regional səviyyələrdə mühafizəsinin təmin olunması sahəsində böyük xidmətlər göstərib. Azərbaycanın ənənəvi klassik musiqisini dünya miqyasında tanıtmaq məqsədilə xanım Mehriban Əliyeva Bakıda Beynəlxalq Muğam Mərkəzinin yaradılması təşəbbüsünü irəli sürüb. Bu gün muğamsevərlərin istifadəsində olan bu mərkəz həm də beynəlxalq musiqi tədbirlərinin keçirilməsi üçün unikal məkandır.

*Ardı 4-cü səh.*

# İkitərəfli dostluq münasibətləri bundan sonra da uğurla inkişaf edəcək



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 2-də Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkoya telefonla zəng edib.

Prezident İlham Əliyev Belarus Prezidentini II Avropa Oyunlarının yüksək səviyyədə təşkili və Belarus idmançılarının bu yarışlarda qazandığı uğurlar münasibətilə təbrik edib. Dövlət başçısı, eyni zamanda Aleksandr Lukaşenkoya Belarus Respublikasının milli bayramı - Müstəqillik günü münasibətilə təbriklərini çatdırıb, Belarus xalqına tərəqqi və firavanlıq arzulayıb.

Belarus Prezidenti Aleksandr Lukaşenko təbriklərə və xoş sözlərə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Dövlət başçıları ölkələrimiz arasında ikitərəfli dostluq münasibətlərinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliklərini bildirib və əlaqələrimizin perspektivləri ilə bağlı fikir mübadiləsi aparıblar.

***Prezidentin Mətbuat Xidməti***

# Belarus Respublikasının Prezidenti zati-aliləri cənab Aleksandr Lukaşenkoya

Hörmətli Aleksandr Qriqoryeviç!

Sizi milli bayramınız - Böyük Vətən müharibəsində Belarusun alman faşist işğalçılarından azad edilməsi ilə əlamətdar olan Müstəqillik Günü münasibətilə ürəkdən təbrik edirəm.

Belarus həqiqətən tarixi əhəmiyyətli bu hadisənin 75-ci ildönümünü müstəqilliyin və suverenliyin möhkəmlənməsi, dövlət idarəçiliyinin və siyasi sistemin təkmilləşdirilməsi və modernləşdirilməsi, dinamik və ardıcıl sosial-iqtisadi inkişaf yolunda inamla irəliləyən, firavanlaşan ölkə kimi qarşılayır.

Bu xoş fürsətdən istifadə edərək, Sizi ən yüksək səviyyədə təşkil olunmuş və bütün idman həvəskarları üçün əsl bayrama çevrilmiş, onlara parlaq çıxışlar və unudulmaz anlar bəxş etmiş II Avropa Oyunlarının uğurla keçirilməsi münasibətilə təbrik etmək istəyirəm.

Bu genişmiqyaslı idman bayramı xalqlar və ölkələr arasında sülhün, etimadın və qarşılıqlı anlaşmanın möhkəmlənməsinə şərait yaradan Olimpiya hərəkatının sarsılmaz prinsiplərinə Belarusun sadiqliyini bir daha əyani şəkildə nümayiş etdirdi.

Hörmətli Aleksandr Qriqoryeviç, Sizə möhkəm cansağlığı və bütün təşəbbüslərinizdə uğurlar, qardaş Belarusun xalqına isə sülh və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı, 1 iyul 2019-cu il*

# Nəcib missiya

## Köməksizlərin himayədarı, çarəsizlərin ümidgahı...

*Budur, orda uşaqlar*
*Atılırlar-düşürlər.*
*Bəlkə topları yoxdu? -*
*Qoy verim ürəyimi*
*qovsunlar yorulunca...*

O, nəcib missiyanın davamçısıdır...
Xeyirxahlıq elçisi...
Ümidsiz qəlblərin müjdəçisi...
Körpə harayların ünü...
Haqsızlığın carçısı...

Atılmış, çarəsiz, xəstə uşaqların pənah, ünvan yeri...

Lap kiçik, hələ məktəb yaşlarından ekranlardan tanıyırdıq onu...

Babasının - Ulu Öndər Heydər Əliyevin əlindən tutaraq kimsəsizlər, autizmli, daun, əqli qüsurlu, əngəlli və digər qayğıya ehtiyacı olan uşaqların şənliklərində iştirak edir, birlikdə rəqs edir, şənlənir, onların göstərdikləri səhnəciklərə tamaşa edir, nailiyyətlərini, əzmlərini heyranlıqla alqışlayırdı...

Lap kiçik yaşlarından nəcib ailəsindən genetik ötürülən xeyirxahlıq missiyasını zərif çiyinlərinə götürübdü...

Onun yeganə qayəsi bütün uşaqların xoşbəxt, gələcəyinin parlaq olması üçün çalışmaq idi...

Və illərdir bu müqəddəs məqsədə doğru dayanmadan irəliləyir...

İncə ruhlu, şair təbiətli, qayğıkeş, sülhsevər, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevadan danışırıq...

*Ardı 4-cü səh.*

# "Star" - yaşı az, uğurları çox

## Fəaliyyət göstərdiyi 9 ay ərzində zavod beynəlxalq standartlar səviyyəsində işlədiyini təsdiqləyib

"Star" Neft Emalı Zavoduna (NEZ) verilən üç mühüm sənəd müəssisənin beynəlxalq standartlara uyğun fəaliyyət göstərdiyini təsdiqləyib. Bunlar "İnteqrasiya edilmiş idarəetmə sistemi", "Keyfiyyət idarəetmə sistemi", "Ekoloji idarəetmə sistemi və Əməyin mühafizəsi və təhlükəsizliyi idarəetmə sistemi" üzrə olan sənədlərdir.



SOCAR-ın (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) Türkiyənin İzmir şəhərinin Əliağa rayonunda inşa etdiyi "Star" Neft Emalı Zavodu cəmi 9 aydır fəaliyyət göstərir. Bununla belə, müəssisə bir sıra uğurlara imza atıb. Belə ki, bu ilin fevral ayında zavod "Petkim PetroKimya Holding A.Ş."yə ilk məhsulunu satıb. Məhsul "Petkim"ə boru kəmərləri ilə çatdırılıb. İlkin mərhələdə "Petkim"ə satılan bu məhsul 1303 ton naftadan ibarət olub. Ümumiyyətlə, bundan sonra "Petkim"in naftaya olan tələbatını bütövlükdə "Star" ödəyəcək.

İndiyədək "Star" bir sıra önəmli mükafatlara da layiq görülüb. İlin əvvəlində zavod "Ən yaxşı maliyyə layihəsi idarəetmə" mükafatını alıb. "Star"a həmin mükafat "International Finance" jurnalı tərəfindən verilib.

Yanvar ayında "Star"ın, həmçinin "SAP S/4 HANA IS-OIL" layihəsi nümunəvi layihə seçilib. Zavodun sözügedən layihəsinə bu yüksək qiymət Frankfurtda keçirilən, 50-dən çox ölkədən 3000-dən artıq layihənin iştirak etdiyi "SAP S-KOM" konfransında verilib. Həmin tədbirdə "Star"ın strateji əhəmiyyətindən və rəqəmsal neftayırma zavodu olmaq yolunda atılan addımlarından da ətraflı bəhs edilib.

Aprel ayında isə müəssisə Ankarada keçirilən SAP Rəqəmsal Transformasiya Zirvəsinin "İlin ən yaxşı layihələri" mərasimində "Enerji sektorunda ilin rəqəmsal transformasiya layihəsi" mükafatına layiq görülüb.

Xatırladaq ki, "Star" Neft Emalı Zavodu keçən il oktyabrın 19-da Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə açılıb. "Star"ın istifadəyə verilməsi Azərbaycanın qısa müddətdə investisiya yatırılan ölkədən sərmayə yönəldən ölkəyə çevrildiyini bir daha nümayiş etdirib.

*Ardı 6-cı səh.*

# Günəş və su

## Bu, pambıqçılıq üçün başlıca şərtdir

Təbiət səxavətlə Azərbaycana dünyada mövcud olan 11 iqlim qurşağından 9-nu bəxş edib. Havanın isti keçməsi nəticəsində yurdumuzda yetişən nemətlər keyfiyyətli və dadlı olur.



Məhsulun yetişməsi üçün yaranışın dörd ünsüründən biri sayılan su da başlıca şərtdir. Günəş öz nurunu və istiliyini bizə lazımınca bəxş edir. Yağan qar və yağışla yanaşı əkinlərin, tarlaların, bağların suvarılması üçün insan əməyinə, düşüncəsinə də ehtiyac yaranır. Bunun üçün kənd adamları əsrlər boyu torpaqda çalışaraq təcrübə toplamış və zaman keçdikcə suvarmanın nəzəriyyəsini yaratmışlar. Beləcə, meliorasiya, irriqasiya bir elm kimi təşəkkül tapmağa başlamışdır.

Təbiəti ram edən insan "Yağmadı yağış, bitmədi qamış" deyimini artıq arxivə göndərmişdir. Sovetlər birliyi zamanı suvarmanın elmi əsasları daha da inkişaf etmiş, ozamankı müttəfiq respublikalarda bu sahə ilə məşğul olan nazirliklər, elmi-tədqiqat institutları səmərəli fəaliyyət göstərmiş, ali məktəblərdə kadrlar hazırlayan fakültələr olmuş və onlar indi də var. Müstəqilliyimizin ilk illərində su təsərrüfatı ilə məşğul olan qurum müəyyən çətinliklərlə üzləşsə də, xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan Heydər Əliyevin müdrik siyasəti nəticəsində bu sahədə də işlər axarına düşmüşdür.

"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC kimi fəaliyyətə başlayan qurum 1990-cı illərin ortalarında yaz aylarında Kür çayında suyun səviyyəsinin bir neçə il dalbadal artması nəticəsində yaranan problemi aradan qaldıraraq, sahilboyu yaşayış məntəqələrinin daşqınlardan və qrunt sularından xilas edilməsi üçün misilsiz işlər gördü. Ekskavatorların, buldozerlərin, ağırtonlu yükboşaldan maşınların köməyi, ən başlıcası isə sözügedən qurumun mütəxəssislərinin, yerli təşkilatların gərgin əməyi ilə Kür çayının hər iki sahilində yüz kilometrlərlə bəndlər vuruldu. Kür üstündə yerləşən rayon mərkəzləri, şəhər, qəsəbə və kəndlər müəyyən çətinliklərlə üzləşsələr də, daşqınlardan itkisiz ötüşdülər.

*Ardı 6-cı səh.*

## “Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci və 26-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

“Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 813; 2016, № 3, maddə 411, № 11, maddə 1756, № 12, maddə 2003; 2017, № 2, maddə 159, № 5, maddə 712, № 12 (I kitab), maddə 2222; 2018, № 5, maddə 893, № 7 (I kitab), maddə 1395; 2019, № 1, maddələr 33, 50, № 2, maddə 189; Azərbaycan Respublikasının 2019-cu il 23 aprel tarixli 1567-VQD nömrəli və 3 may tarixli 1586-VQD nömrəli qanunları) 16.16.4-cü maddəsində “müvafiq icra hakimiyyəti orqanı tərəfindən” sözləri “maliyyə bazarlarına nəzarət orqanı tərəfindən müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırmaqla” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 iyun 2019-cu il*

## “Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 13 iyun tarixli 1610-VQD nömrəli Qanununun tətbiqi və “Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1284-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 iyul tarixli 566 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 13 iyun tarixli 1610-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

2. “Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1284-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 iyul tarixli 566 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 834; 2016, № 6, maddə 1049; 2017, № 5, maddə 847) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci bəndində “maddəsində” sözü “və 16.16.4-cü maddələrində” sözləri ilə əvəz edilsin;

2.2. 2.3-cü bənd ləğv edilsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 iyul 2019-cu il*

## “Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin “Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü”nün təsis edilməsi haqqında”

2019-cu il 15 aprel tarixli 641 nömrəli və “I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü”nün təsis edilməsi haqqında”

2019-cu il 15 aprel tarixli 643 nömrəli fərmanlarının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 387 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2544) ilə təsdiq edilmiş “DOST” mərkəzlərində göstərilən xidmətlərin siyahısı”na aşağıdakı dəyişikliklər edilsin:

1. 5.2.2-ci yarımbəndin 11.1-11.5-ci abzasları ləğv edilsin.
2. 7-ci hissə üzrə:

| | |
|---|---|
| 7.8. | 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və “Leninqradın müdafiəsinə görə” medalı, “Leninqrad mühasirəsində yaşayan” döş nişanı ilə təltif edilmiş şəxslərə |
| 7.9. | ümumi xəstəliklə, hərbi xidmət dövründə xəstələnmə ilə, əmək zədəsi və peşə xəstəliyi ilə, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə bağlı səbəblərdən I qrup əlilliyi olan şəxslərə |

2.1. 7.8-ci və 7.9-cu bəndlər aşağıdakı redaksiyada verilsin:

| | |
|---|---|
| 7.11. | I dərəcə əlilliyi olan şəxslərə qulluq edən şəxslərə |
| 7.12. | sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edən şəxslərə |
| 7.13. | müharibə veteranlarına |

2.2. aşağıdakı məzmunda 7.11 - 7.13-cü bəndlər əlavə edilsin:

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 iyul 2019-cu il*

## Astara rayonunun Ərçivan-Artupa-Səncərədi-Alaşa-Züngüləş avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. On beş min nəfər əhalinin yaşadığı 5 yaşayış məntəqəsini birləşdirən Ərçivan-Artupa-Səncərədi-Alaşa-Züngüləş avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 4,9 milyon (dörd milyon doqquz yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 iyul 2019-cu il*

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Cənab Prezident!

Milli bayramınız - Respublika Günü münasibətilə zati-alinizə və Azərbaycan xalqına səmimi təbriklərimi çatdırmaq istəyirəm.

Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına tərəqqi və rifah arzulayır, ölkələrimiz arasında mövcud olan sıx dostluq əlaqələrinin qarşıdakı illərdə daha da möhkəmlənəcəyinə əminliyimi bildirirəm.

*Ən yüksək ehtiramla,*

***Norodom SİHAMONİ,***
***Kambocanın Kralı***

## Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib.

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə və “Konstitusiya Məhkəməsi haqqında” Qanunun 7.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 90.9-cu və 91.7-ci maddələrinin şərh edilməsinə dair Azərbaycan Respublikası Prokurorluğunun sorğusuna baxılaraq, icraata qəbul olunması haqqında qərardad çıxarılıb.

Sorğuya mahiyyəti üzrə, tərəflərin iştirakı ilə Konstitusiya Məhkəməsi Plenumunun iyulun 19-na təyin edilmiş iclasında baxılacaq.

## Dost ölkələr olan Azərbaycan ilə Qazaxıstan arasındakı əlaqələr strateji xarakter daşıyır

Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədov iyulun 2-də Qazaxıstan Respublikasının Baş Nazirinin müavini xanım Gülşara Abdıkalıkova ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, Baş Nazir Novruz Məmmədov UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakıda keçirilməsinin əhəmiyyətindən danışaraq dost ölkələr olan Azərbaycan ilə Qazaxıstanın bu təşkilat çərçivəsində də fəal əməkdaşlıq etdiklərini diqqətə çatdırıb. Tarixən qardaş ölkələrimiz, xalqlarımız arasında çox sıx əlaqələrin mövcud olduğunu bildirən Baş Nazir Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və Qazaxıstan xalqının lideri Nursultan Nazarbayevin bu münasibətlərin möhkəmləndirilməsində mühüm xidmətlərinin olduğunu vurğulayıb. “Bizim ölkələrimiz arasında müxtəlif sahələrdə çox yaxşı əlaqələr mövcuddur. Azərbaycan və Qazaxıstan beynəlxalq təşkilatlar çərçivəsində də çox sıx əməkdaşlıq edirlər. Qazaxıstan Azərbaycanın iştirak etmədiyi təşkilatlarda, tədbirlərdə daim bizim ölkəmizin mövqeyini müdafiə edir. Hesab edirəm ki, bu, ölkələrimiz arasındakı dostluğun təzahürüdür və digər dövlətlər üçün də yaxşı nümunə ola bilər” deyə Novruz Məmmədov vurğulayıb.

Baş Nazir Novruz Məmmədov yüksək səviyyəli qarşılıqlı səfərlərin iki ölkə arasındakı münasibətlərin genişləndirilməsi baxımından önəmli olduğunu vurğulayaraq xanım Gülşara Abdıkalıkovanın Azərbaycana səfərinin UNESKO çərçivəsində, həmçinin müxtəlif sahələrdə əməkdaşlığın daha da inkişafına təkan verəcəyinə əminliyini ifadə edib.

Xalqımızın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən bəhs edən Baş Nazir Qazaxıstanın ölkəmizin ədalətli mövqeyinə verdiyi dəstəyə görə minnətdarlığını bildirib.

Qazaxıstanın Baş Naziri Askar Maminin salamlarını çatdıran Gülşara Abdıkalıkova deyib ki, dost ölkələr olan Azərbaycan ilə Qazaxıstan arasındakı əlaqələr strateji xarakter daşıyır. “Bizim ölkələrimiz arasında çox səmərəli əməkdaşlıq əlaqələri var. Biz hər zaman qarşılıqlı olaraq bir-birimizin maraqlarını müdafiə edirik. Əminəm ki, bu münasibətlər gələcəkdə daha da inkişaf edəcək” deyə Baş Nazirin müavini vurğulayıb.

Novruz Məmmədov Askar Maminə salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarının Qazaxıstanın Baş Nazirinə çatdırılmasını xahiş edib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Dayanıqlı İnkişaf Məqsədləri üzrə Milli Məlumatlandırma Portalı təqdim olunub

İyulun 2-də “2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı” çərçivəsində Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin təşəbbüsü və BMT-nin İnkişaf Proqramının Azərbaycan üzrə nümayəndəliyinin dəstəyi ilə yaradılmış Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf Məqsədləri (DİM) üzrə Milli Məlumatlandırma Portalının təqdimat mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, təqdimat mərasimində Baş Nazirin müavini, Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov, Dövlət Statistika Komitəsinin sədri, Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının üzvü Tahir Budaqov, Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai və İnkişaf Proqramının (UNDP) ölkəmizdəki rezident nümayəndəsi Alessandro Frakassetti çıxış ediblər.

Qeyd olunub ki, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 oktyabr tarixli fərmanına əsasən, Baş Nazirin müavini Əli Əhmədovun sədrliyi ilə Dövlət Statistika Komitəsi də daxil olmaqla aidiyyəti dövlət orqanlarının təmsil olunduğu Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılıb. Şuranın fəaliyyəti səmərəli təşkil edilib, bu istiqamətdə qarşıda duran vəzifələr konkretləşdirilib, 2030-cu ilədək Azərbaycan üçün əhəmiyyət kəsb edən, qlobal məqsəd və hədəflərə uyğun milli prioritetlər və onlara dair göstəricilər, milli səviyyədə DİM-ə nail olunmasına dair icra və hesabatlıq mexanizmi müəyyənləşdirilib, ölkədə qəbul edilən dövlət proqramları və strategiyalar DİM ilə uzlaşdırılıb. Sözügedən fərmandan irəli gələn tapşırıqlar ölkəmizdə dayanıqlı inkişaf sahəsində aparılan islahatların başlıca istiqamətləri üzrə təkanverici rol oynayır.

Məlum olduğu kimi, BMT tərəfindən dayanıqlı inkişaf sahəsində müəyyən edilmiş 17 məqsəd və 169 hədəf üzrə irəliləyişin ölçülməsi milli statistika məlumatlarına əlyetərliliyin təmin olunmasını tələb edir. Bu da öz növbəsində, DİM üzrə göstəricilər barədə keyfiyyətli statistika məlumatlarının vaxtlı-vaxtında təqdim edilməsi sahəsində milli innovativ təşəbbüslərin irəli sürülməsinə zəmin yaradıb. Bu baxımdan DİM üzrə əldə ediləcək nailiyyətlərin mütəmadi izlənilməsi, məlumatların müasir texnoloji vasitələrlə daha effektiv üsullarla kütləvi şəkildə istifadəçilərə çatdırılması informasiya yayımının müasir tələblər səviyyəsində təşkilinə zəmin yaradır. Bu kontekstdə statistik potensialın gücləndirilməsi əsas vəzifələrdəndir. DİM-ə nail olunması ilə əlaqədar statistik məlumatların, habelə ölkə üzrə hazırlanmış hesabatların geniş istifadəçi kütləsinə açıqlanması milli statistik məlumat bazası və internet portalın yaradılmasını qaçılmaz edib. Portalın funksional imkanları bütün maraqlı tərəflər üçün DİM üzrə milli səviyyədə şəffaf monitorinq və qiymətləndirmənin aparılmasına imkan verəcək. Bununla yanaşı, portal milli statistika sistemindən qlobal statistika sisteminə rəsmi statistik məlumatların ötürülməsində virtual körpü rolunu oynayacaq.



Sonra Dövlət Statistika Komitəsinin Dayanıqlı inkişaf statistikası şöbəsinin müdiri, Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yanında Monitorinq və qiymətləndirmə üzrə İşçi qrupun rəhbəri Rasim Səfərov Dayanıqlı İnkişaf Məqsədləri üzrə Milli Məlumatlandırma Portalının təqdimatını keçirib.

Azərbaycan və ingilis dillərində olan vahid milli onlayn məlumat mənbəyi DİM sahəsində maarifləndirmə, qabaqcıl təcrübələr, həyata keçirilən tədbirlər və baş verən yeniliklər barədə ictimaiyyətin, o cümlədən dövlət qurumları, özəl sektor, elm və təhsil müəssisələri, vətəndaş cəmiyyəti institutları, kütləvi informasiya vasitələri, regional və beynəlxalq təşkilatların məlumatlandırılması üçün əlverişli informasiya mühiti yaradacaq. Portal vasitəsilə hər bir məqsəd, hədəf və onlara dair göstəricilər barədə ətraflı məlumatlara rahat çıxış imkanı təmin ediləcək. Bu informasiya resursundan istifadə etməklə qlobal məqsəd, hədəf və göstəricilər, DİM üzrə milli prioritetlər, mövcud hüquqi çərçivə, icra mexanizmləri, sosial, iqtisadi və ekoloji sahələrdə həyata keçirilən dövlət proqramları, strategiyalar, mühüm tədbirlər, hesabatlar, nəşrlər və elmi tədqiqat işləri ilə mütəmadi tanış olmaq olduqca əlverişlidir.

Mərasimin sonunda tədbir iştirakçılarını və KİV nümayəndələrini maraqlandıran suallar cavablandırılıb.

## Milli Məclisin Elm və təhsil komitəsinin iclası keçirilib

İyulun 2-də Milli Məclisdə “Ali təhsil haqqında” yeni qanun layihəsinin hazırlanması məqsədilə parlamentin Elm və təhsil komitəsi üzvlərinin, Təhsil Nazirliyinin təmsilçilərinin və mütəxəssislərin iştirakı ilə iclas keçirilib.

AZƏRTAC xəbər verir ki, Elm və təhsil komitəsinin sədri İsa Həbibbəyli iclası açaraq bildirib ki, son dörd il ərzində komitə tərəfindən bir sıra yeni qanunlar, o cümlədən “Təhsil haqqında”, “Məktəbəqədər təhsil haqqında”, “Peşə təhsili haqqında”, “Elm haqqında” sənədlər qəbul edilib. Bu qanunlar müvafiq mərhələlərlə hazırlanıb. Hazırda “Ali təhsil haqqında” qanun layihəsinin hazırlanması prosesinə start verilib.

Bildirilib ki, 2009-cu ildən sonra dünyada təhsil sistemində böyük dəyişikliklər olub. Çalışacağıq ki, həm dünya təcrübəsində olan dəyişikliklər, həm də Azərbaycan təhsilindəki yeniliklər layihədə öz əksini tapsın.

İclasda qanun layihəsinin hazırlanması üzrə işçi qrupun yaradılması məsələsinə də baxılıb. Diqqətə çatdırılıb ki, işçi qrupun sədri İsa Həbibbəyli, sədr müavinləri Milli Məclisin deputatı Bəxtiyar Əliyev və Təhsil nazirinin müavini İdris İsayevdir. İşçi qrupda Milli Məclisin deputatları Şəmsəddin Hacıyev, Ağacan Abıyev, Kəmalə Əliyeva, Musa Qasımlı, Pərvin Kərimzadə, Asim Mollazadə, Təhsil Nazirliyinin mütəxəssisləri təmsil olunublar.

İsa Həbibbəyli onu da vurğulayıb ki, bu qanun Konstitusiyanın müvafiq maddəsinə uyğun olaraq ölkəmizdə ali təhsilin təmin olunması sahəsində dövlət siyasətinin əsas prinsiplərini, ali təhsilin təşkilati-hüquqi və iqtisadi əsaslarını müəyyən edəcək. Sənəddə ali təhsilin təşkili, bu sahənin işçilərinin attestasiyası, müəssisələrin idarə olunması və maliyyələşdirilməsi, təhsilalanların və təhsilverənlərin hüquq və vəzifələri, ali təhsil sahəsində sahibkarlıq və innovasiya fəaliyyəti və bir sıra digər məsələlər öz əksini tapacaq. Layihədə, eyni zamanda ali təhsil sahəsində beynəlxalq əməkdaşlıqla bağlı məqamlar da nəzərdə tutulub.

Müzakirələr zamanı çıxış edən deputatlar Bəxtiyar Əliyev, Şəmsəddin Hacıyev, Musa Qasımlı, Asim Mollazadə, Pərvin Kərimzadə, Ağacan Abıyev, Rafael Hüseynov və Təhsil Nazirliyinin təmsilçiləri İdris İsayev, Yaqub Piriyev, ADA Universitetinin prorektoru Fariz İsmayılzadə hazırlanacaq qanun layihəsi ilə bağlı fikirlərini bildirib, təkliflərini veriblər.

# Azərbaycan Polisinin yaranmasının 101-ci ildönümü qeyd edilib

İyulun 2-də Azərbaycan Polisi yaranmasının 101-ci ildönümü qeyd edilib.



Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu münasibətlə təntənəli tədbirdən əvvəl Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazovun rəhbərliyi ilə DİN-in əməkdaşları Fəxri xiyabana gələrək ulu öndər Heydər Əliyevin abidə kompleksi önünə tər çiçək dəstələri düzüblər.

Həmçinin görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla yad olunub.

Sonra respublikanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş mərd mübarizlərin uyuduğu Şəhidlər xiyabanı ziyarət edilib, şəhidlərimizin məzarları üzərinə tər çiçək dəstələri düzülüb.

Daxili İşlər Nazirliyində Azərbaycan Polisinin növbəti ildönümünə həsr olunmuş təntənəli mərasim keçirilib.

Mərasim iştirakçıları xalqımızın ümummilli lideri Heydər Əliyevin, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən və xidməti borcu yerinə yetirərkən həlak olmuş polis əməkdaşlarının xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.



Nazir, general-polkovnik Vilayət Eyvazov Azərbaycan Polisinin keçdiyi şərəfli yol, xüsusən ulu öndər Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrlərdə daxili işlər orqanlarının fəaliyyətinin təşkili, peşəkar kadr özəyinin yaradılması, Prezident İlham Əliyevin başçılığı ilə hüquq mühafizə, o cümlədən daxili işlər orqanlarında həyata keçirilən islahatlar, struktur dəyişiklikləri, maddi-texniki bazanın möhkəmləndirilməsi, iş şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlərdən danışıb.

Ən yeni tariximizə nəzər salan nazir 2003-cü ildə Prezident İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsindən sonrakı mərhələnin ölkəmizin dinamik inkişafı, dünyada nüfuz və söz sahibinə çevrilməsi ilə səciyyəvi olduğunu, lakin dövlətimizi xaos və anarxiya girdabına sürükləmək, dövlətçiliyi sarsıtmaq cəhdlərinin səngimədiyini, yaranmış vəziyyətdə onun qətiyyəti, xalqın öz rəhbərinə olan sarsılmaz inamı və dəstəyi, hüquq mühafizə orqanlarının yüksək peşəkarlığı, proseslərə operativ müdaxiləsi sayəsində həmin cəhdlərin qarşısına sipər çəkildiyini, hərtərəfli islahatların, möhtəşəm transmilli layihələrin həyata keçirilməsi üçün zəruri olan sabitliyin bərqərar olunduğunu bildirib.

Müasirləşmə tendensiyasının Daxili İşlər Nazirliyinin bütün orqan və hissələrini əhatə etdiyini vurğulayan general-polkovnik Vilayət Eyvazov ötən 16 ilə yaxın müddətdə fəaliyyətin beynəlxalq standartlara uyğunlaşdırılması, maddi-texniki təminatın yaxşılaşdırılması, o cümlədən ən müasir texnologiyalarla təchizatın yüksək səviyyəyə çatdırıldığını, onlarla elektron xidmət, veb-sayt, "qaynar xətt" və digər informasiya resurslarının yaradıldığını, polisin "ASAN xidmət" mərkəzlərində fəaliyyətinin təşkil olunduğunu deyib. Qeyd edilib ki, vətəndaş məmnunluğunu təmin edən bu və digər innovativ təşəbbüslər orqan və hissələrdə qanunçuluğun qorunmasının effektivliyini, xidmətin səmərəsini və operativliyini qat-qat artırıb.

Nazir Vilayət Eyvazov dövlət başçısının rəhbərliyi ilə təkcə cari ildə sosial islahatların reallaşdırılması nəticəsində Daxili İşlər Nazirliyinin əməkdaşlarının əməkhaqlarının artırıldığını, bu peşə bayramı ərəfəsində isə 26 əməkdaşın dövlət mükafatları ilə təltif edildiyini, rəhbər vəzifəli bir şəxsə ali xüsusi rütbə verildiyini xatırladıb. General-polkovnik Vilayət Eyvazov bunun Prezidentin şəxsi heyətə göstərdiyi ali diqqət və qayğının növbəti əyani ifadəsi olduğunu bildirib, eyni zamanda, daxili işlər orqanlarının və Daxili Qoşunların asayişin və təhlükəsizliyin təmini üzrə fəaliyyətini dövlət başçısının və Birinci vitse-prezidentin yüksək qiymətləndirdiyini, şəxsi heyətə təşəkkürlərini ifadə etmələrini məmnunluq hissi ilə vurğulayıb.

Daxili işlər orqanlarının fəaliyyətini hər zaman yüksək dəyərləndirdiyinə görə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə dərin minnətdarlığını bildirən nazir V.Eyvazov əminliklə bildirib ki, ulu öndər Heydər Əliyev ideallarına həmişə sadiq olan şəxsi heyət andına sadiq qalaraq vətənə və xalqa xidmət kimi şərəfli yolda bundan sonra da qətiyyətlə irəliləyəcək, sabitliyi, vətəndaşlarımızın təhlükəsizliyini, qanuni mənafelərini, hüquq və azadlıqlarını bundan sonra da etibarlı qoruyacaq, dövlət başçısının inam və etimadını hər zaman layiqincə doğrultmağa çalışacaq.

Çıxışının sonunda nazir Azərbaycan Polisinin yaranmasının 101-ci ildönümü münasibətilə bütün şəxsi heyəti, veteranları, respublikanın ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalmış, vəzifə borcunu yerinə yetirərkən həlak olmuş əməkdaşların ailə üzvlərini bir daha ürəkdən təbrik edib, onlara möhkəm cansağlığı, xidmətdə və şəxsi həyatda uğurlar arzulayıb.

Sonra xidməti vəzifələrin yerinə yetirilməsində fərqlənmiş bir qrup əməkdaşın mükafatlandırılmasına dair Daxili İşlər nazirinin əmri elan olunub.

General-polkovnik Vilayət Eyvazov mükafatları təqdim edib.

Təntənəli mərasimin sonunda Azərbaycan Dövlət Televiziyası tərəfindən hazırlanmış "Azərbaycan Polisi - 101" sənədli filmi nümayiş olunub.

# Bakıda Belarusun milli bayramı qeyd edilib

İyulun 2-də Belarusun Azərbaycandakı səfirliyi ölkəsinin milli bayramı - Müstəqillik Günü münasibətilə rəsmi qəbul təşkil edib.

AZƏRTAC xəbər verir ki, tədbirdə əvvəlcə Azərbaycanın və Belarusun Dövlət himnləri səsləndirilib.

Səfir Gennadi Axramoviç bildirib ki, 1944-cü il iyulun 3-də Minskin faşist işğalçılarından azad edilməsi Belarusun Müstəqillik Günü kimi qeyd olunur. Belarus xalqı İkinci Dünya müharibəsi zamanı böyük itkilər yaşayıb. O, Belarusun işğaldan azad olunmasında iştirak edən ölkələrə minnətdarlığını bildirib.

Səfir, həmçinin Belarusun Azərbaycan ilə əlaqələrinə toxunub. Bildirib ki, Belarus Azərbaycan ilə əməkdaşlığa və dostluğa böyük önəm verir. İki ölkə arasında münasibətlər strateji xarakter daşıyır. Azərbaycan-Belarus əlaqələri qarşılıqlı səmərəli əməkdaşlıq üzərində qurulub.



Rəsmi qəbulda çıxış edən Baş Nazirin birinci müavini Yaqub Eyyubov Azərbaycan hökuməti adından Belarus xalqını təbrik edib.

Yaqub Eyyubov Azərbaycan-Belarus münasibətlərinin səmimi dostluğa əsaslandığını deyib. Bildirib ki, yüksəksəviyyəli qarşılıqlı səfərlər, eləcə də iki ölkənin liderləri arasındakı şəxsi dostluq münasibətləri əlaqələrimizin inkişafına böyük töhfə verir. Azərbaycan və Belarusun qarşılıqlı etimada əsaslanan münasibətləri var. Belarus Prezidenti Aleksandr Lukaşenkonun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində prinsipial mövqeyini alqışlayırıq.

Baş Nazirin birinci mavini vurğulayıb ki, Azərbaycan və Belarus arasında iqtisadiyyat, mədəniyyət, idman, səhiyyə, kənd təsərrüfatı, ticarət, maşınqayırma və digər sahələrdə əməkdaşlıq genişlənir.

Yaqub Eyyubov qeyd edib ki, Bakıdan sonra Avropa Oyunlarının estafetini Belarusun götürməsi çox əlamətdardır. Belarus Avropa Oyunlarını çox yüksək səviyyədə təşkil etdi və öz qonaqpərvərliyini nümayiş etdirdi.

Qəbulda dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun təmsilçiləri, KİV nümayəndələri iştirak ediblər.

# Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində təşkil edilən tədbirdə Ağa Xan Fondunun fəaliyyəti yüksək qiymətləndirilib





İyulun 2-də Bakı Konqres Mərkəzində UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində Ağa Xan Fondunun ("Aga Khan Foundation") mədəni irsin qorunub saxlanılması sahəsində fəaliyyətinə həsr olunmuş tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Mədəniyyət naziri Əbülfəs Qarayev Ümumdünya İrs Komitəsinin Bakı sessiyası çərçivəsində səmərəli müzakirələrin aparıldığını bildirib. Nazir bu tədbirlərin dünya ictimaiyyətinin diqqətini mədəni irsin qorunub saxlanılmasına yönəldəcəyini vurğulayıb.

O, Ağa Xan Fondunun dünya ölkələrinin mədəni və tarixi abidələrinin bərpası və mühafizə olunması istiqamətindəki fəaliyyətini yüksək qiymətləndirib. Əbülfəs Qarayev ölkəmizdə bu istiqamətdə Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun gördüyü işləri xüsusi vurğulayıb.

Daha sonra nazir qeyd edib ki, Ağa Xan Fondunun ilk musiqi mükafatına azərbaycanlı bəstəkar və pianoçu, UNESKO-nun "Sülh artisti" Firəngiz Əlizadə layiq görülüb.

Sonra Ağa Xan Fondunun fəaliyyəti və tarixi memarlıq abidələrinin qorunub saxlanılması istiqamətində həyata keçirdiyi əsas layihələri əks etdirən videoçarx nümayiş olunub.

Tədbirdə Ağa Xan Fondunun baş meneceri Luis Monreal fond tərəfindən memarlıq abidələrinin bərpası və təmiri istiqamətində Hindistan, Tacikistan, Əfqanıstan, Mali, Suriya və Pakistanda həyata keçirilən layihələr barədə ətraflı məlumat verib. Bildirib ki, fond tərəfindən 200-ə yaxın mədəni və tarixi abidənin bərpası və təmir olunması həyata keçirilib.

Qeyd edilib ki, memarlıq sahəsi üzrə Ağa Xan Mükafatı artıq dördüncü onillikdir ki, verilir. Mükafat bütün dünyada müsəlman cəmiyyətinin ehtiyaclarının və arzularının uğurla təmin edilməsinə imkan verən inşaat konsepsiyalarının aşkar və təşviq edilməsi məqsədilə təsis edilib.

Sonra çıxış edən natiqlər memarlıq mükafatının təltif olunduğu müxtəlif tarixi və memarlıq abidələrinin bərpası və qorunub saxlanması ilə bağlı layihələrdən söz açıblar.

# Bakıda UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının növbəti günündə müvafiq qərarlar qəbul olunub

## Üzv dövlətlərlə məşvərət qrupları arasında dialoqun gücləndirilməsinə həsr olunan hesabat müzakirə edilib

Bakıda UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası iyulun 2-də öz işini iştirakçı ölkələrin təmsilçilərinin çıxışları ilə davam etdirib.



AZƏRTAC xəbər verir ki, sessiyanın növbəti günündə üzv dövlətlərlə məşvərət qrupları arasında dialoqun gücləndirilməsinə həsr olunan hesabat müzakirə edilib.

Sessiyanın təşkilat komitəsinin sədri, Azərbaycanın Mədəniyyət naziri Əbülfəs Qarayev müzakirə olunacaq hesabat barədə danışıb və hər kəsi müzakirələrdə fəal olmağa çağırıb.

Sonra Azərbaycan, Norveç, Tanzaniya, İndoneziya, Bəhreyn, Braziliya, Macarıstan, Küveyt, Qvatemala, Tunis, Avstraliya, Çin və digər ölkələrin təmsilçiləri təqdim olunan hesabatla bağlı fikirlərini bölüşüblər. Bildirilib ki, dialoqun qurulması üçün belə hesabatlar mühüm əhəmiyyət daşıyır.

Çıxış edənlər Ümumdünya İrs Komitəsinin son illər gördüyü işlərdən və dünyada mədəni irsin qorunması istiqamətində reallaşdırılan layihələrdən də danışıblar.

Çıxışlarda diqqətə çatdırılıb ki, dialoq məşvərət qrupları ilə üzv ölkələr arasında şəffaflığa xidmət edəcək. Qeyri-müəyyənliklərlə bağlı müxtəlif mexanizmlər bu işə müsbət təsir göstərəcək. Eləcə də 15 ildən artıqdır ki, Ümumdünya İrs Komitəsinin siyahısına daxil edilmək növbəsi gözləyən və təhlükə ilə üzləşən obyektlər üçün dialoqların qurulması vacibdir. Həmçinin vurğulanıb ki, dialoq daimi aparılmalı, konvensiyaya inamı artırmalıdır.

Məşvərət qurumları modellərin hazırlanması ideyası ilə çıxış ediblər. Vurğulanıb ki, dialoqun aparılması xüsusi olaraq qərarların optimallaşmasına xidmət edəcək.

Üzv ölkələr dialoqla bağlı təkliflərini də irəli sürüblər. Bildirilib ki, dialoq işin ardıcıllığına xidmət etməli, nəticələri dəyişməyə meyilli olmalıdır. Çünki sistemli gələcək və qloballaşma prosesinə mənfi halların aradan qaldırılması məhz dialoq vasitəsilə reallaşa bilər.

Plenar iclas zamanı ICOMOS və ICUN nümayəndələri bildiriblər ki, nominasiyalar prosesində üzv dövlətlər ilə dialoqun qurulması vacibdir.

Çıxış edənlər Ümumdünya İrs Komitəsinin son illər gördüyü işlərdən və dünyada mədəni irsin qorunması istiqamətində reallaşdırılan layihələrdən də danışıblar.

Müzakirələr zamanı həmçinin Azərbaycanın təklif etdiyi "Nominasiya prosesində ilkin siyahıların hazırlanması, reaktiv monitorinqin aparılmasında səmərəli və konstruktiv dialoqun qurulması" bəndi hesabata əlavə edilib. Azərbaycanın təklifi üzv dövlətlərin iştirakçıları tərəfindən qəbul olunub. Daha sonra hesabatdakı müxtəlif bəndlərlə bağlı qərar layihələri müzakirə edilib.

Plenar iclasda gündəliyin əsas məsələlərindən olan Dünya İrs Mülkiyyətinin Konservasiyası vəziyyəti müzakirəyə çıxarılıb.

Sonra UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində keçirilən Abidə Menecerləri Forumuna həsr edilmiş hesabat dinlənilib. Bildirilib ki, Abidə Menecerləri Forumu UNESKO-nun Mədəni İrs Siyahısında yer alan abidələrin idarə edilməsi ilə məşğul olan mütəxəssisləri bir araya gətirmək baxımından böyük əhəmiyyət kəsb edir. Forum abidə menecmenti üçün təcrübə mübadiləsi, ən son yeniliklərlə bağlı məlumat mübadiləsi baxımından vacib platformadır.

Abidə Menecerləri Forumunun bəyanatı oxunaraq qəbul edilib. Bəyanatda birgə ideyalar, dayanıqlı inkişaf, təcrübələrin bölüşdürülməsi, regional və beynəlxalq səviyyədə əlaqələrin qurulması, birgə addımların atılması və digər məsələlər öz əksini tapıb.

Ümumdünya İrs Komitəsinin sədri xanım Mitheld Rössler hesabatdakı 7-ci bəndlə bağlı məlumatları diqqətə çatdırıb. Bildirib ki, bu bənddə səmərəli və konstruktiv yanaşma məsələləri, idarəçilik planları, turizmin düzgün idarə olunması və dünya mədəni irsinə turizmin təsiri haqqında fikirlər yer alıb.

Sessiya işini günün ikinci yarısında təhlükə ilə üzləşən tarixi məkanların vəziyyətinə dair müzakirələrlə davam etdirib və müvafiq qərarlar qəbul olunub.

Növbəti məsələ kimi Suriyanın qədim Dəməşq şəhərinin vəziyyəti müzakirə olunub. UNESKO-nun Təhlükə ilə üzləşən abidələr siyahısına daxil edilən Dəməşqin bu siyahıdan çıxarılması təklif edilib. Abidə və Tarixi Yerlərin Qorunması üzrə Beynəlxalq Şuranın (ICOMOS) təmsilçisi qeyd edib ki, əgər kənardan heç bir təhlükə olmasa, Dəməşqdə konservasiya baxımından sabitlik yaranar. Bir neçə üzv ölkənin də rəyləri nəzərə alınmaqla Dəməşqlə bağlı müzakirələr başa çatıb və müvafiq qərar qəbul edilib.

Çilidəki Hamberson və Santa-Laura məzarlığında konservasiya və bərpa işləri ilə bağlı görülmüş tədbirlər müzakirə edilərkən qeyd olunub ki, burada vəziyyət çox yaxşıdır. 2005-ci ildən bəri görülən işlər öz nəticəsini verib. Bütün çıxışçılar Çilini bu uğur münasibətilə təbrik edib və qərar yekdilliklə qəbul edilib.

Sessiya sabah öz işini davam etdirəcək.

# UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində paralel iclaslar keçirilib




Bakı Konqres Mərkəzində UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası iyulun 2-də paralel iclaslarla işini davam etdirib.

AZƏRTAC xəbər verir ki, ilk iclas Afrika və ərəb ölkələrində baş verən təbii fəlakətlər və münaqişələr nəticəsində dağıntıya məruz qalan mədəni irsin qorunmasına həsr edilib. Müzakirələrdə 2019-2020-ci illər üçün tədbirlər haqqında məlumat verilib.

Bildirilib ki, ekoloji mədəni irsin qorunması həm yerli icra orqanlarının, həm də könüllülərin nəzarətində olmalıdır. Dünyada ən çox dağıntıya məruz qalan məhz bu regionlardır. Bu səbəbdən də Ümumdünya İrs Komitəsi regionlara dəstəyini əsirgəməməlidir.

Dini irsin qorunmasına həsr olunan iclasda dini maraqlarla bağlı ən yaxşı təcrübələr bölüşülüb. Dünyada tolerantlıq, mədəni dialoq və vicdan azadlığı aspektində dini irsin əhəmiyyəti vurğulanıb. Xüsusilə UNESKO siyahısında yer alan dini ehkamların qorunmasının mövcud problemləri müzakirə edilib. İştirakçılar öz təcrübələrini bölüşüblər.

Üzv ölkələrin nümayəndələrinin iştirakı ilə keçirilən növbəti iclasda büdcə məsələləri müzakirə edilib. İclasda 180 ölkənin mədəni irsin qorunmasına ayırdığı maliyyə fondu və xərcləri nəzərdən keçirilib. İşçi qrupların hesabatları dinlənilib.

Paralel iclaslar müzakirələrlə davam etdirilib.



















# Nəcib missiya

## Köməksizlərin himayədarı, çarəsizlərin ümidgahı...

*Əvvəli 1-ci səh.*

### Balacaların böyük dostu

Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və fondun vitse-prezidenti Leyla Əliyeva Azərbaycanda xeyriyyəçilik, təhsil, səhiyyə və digər məsələlərlə bağlı böyük layihələr həyata keçirirlər. Ən ümdəsi isə atılmış, kimsəsiz, qayğıya ehtiyacı olan bütün uşaqlara lazımi şərait yaradır, dəstək göstərirlər. Mübaliğəsiz demək olar ki, həmin uşaqları bu həyata bağlayan, çarəsiz valideynlərin ürəyindəki ümid qığılcımlarını sönməyə qoymayan da daim göstərilən bu diqqət və qayğıdır.

Leyla xanım Əliyeva hansısa bir bayram, əlamətdar gün gözləmədən daim yardıma ehtiyacı olan körpələrin evini ziyarət edir, onların ən kiçik arzularını, istəklərini belə yerinə yetirməkdən böyük məmnunluq duyur. Bəzən şıltaq bir uşaq kimi onlarla oynayır, dizin-dizin sürünür, bəzən bu balaca bədənlərin necə böyük bir qəlbə sahib olmaları onu riqqətləndirir, bəzən də ümidlə ona dikilən məsum gözlərin dərinliyinə pərdə çəkmiş kədəri görəndə qüssələnir...

### "Leyla xanım bizə nə vaxt gələcək, çox darıxmışıq onun üçün..."

"Leyla xanım bizə nə vaxt gələcək, çox darıxmışıq onun üçün... Leyla xanımgilə getmirik?" - deyə bu doğmalığı hiss edən Bakının Nizami rayonundakı 1 saylı uşaq evinin balaca sakinləri ərklə soruşurlar...

İl boyu Leyla xanım psixonevroloji sosial xidmət müəssisəsini, sağlamlıq imkanları məhdud, valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün xüsusi internat məktəbini, sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi internat məktəbini, uşaq evini, Milli Onkologiya Mərkəzinin Uşaq Klinikasını, Talassemiya, Daun Mərkəzini və bu qəbildən olan onlarla digər müəssisəni ziyarət edir...

Gəlişiylə də həmin ünvanlara bir dünya ümid, qəlb sevinci bəxş edir...

### Dağ boyda ürəyin sahibi

Artıq bu bir adətkərdəliyə çevrildiyi üçün həmin ünvanların balaca sakinləri də hər açılan qapının arxasında məhz onun, Leyla xanımın olmasını səbirsizliklə gözləyirlər...

Budur, anidən qapı açılacaq və gülərüzlü Leyla xanım qollarını açıb onlara sarı gələcək, qucaqlayacaq, saçlarını tumarlayacaq, bağrına basacaq, öz doğma balası kimi...

Leyla xanım il boyu bu cür xüsusi qayğıya ehtiyacı olan, fiziki qüsurlu uşaqlara maddi və mənəvi qayğı göstərir, hansısa qabiliyyətlər əldə etmələri, nailiyyət qazanmaları, xəstəliklərini ötürmələri istiqamətində bircə addım da olsa irəliləmələri üçün əlindən gələni əsirgəmir. Daim onların qonağı olur, amma bu sadəcə bir ziyarət deyil axı... Həmin ünvanlardakı könlü yaralı, xəstə, çarəsiz uşaqların ağrı-acısını paylaşmaq, bir az da olsa azaltmaq, dərdinə şərik olmaq üçün dağ boyda ürəyə sahib olmaq lazımdır...

Və elə bu cür ürəyə sahib olmağın nəticəsi deyilmi ki, Leyla xanım uşaq evində valideyn himayəsindən məhrum olan bir körpə qıza - Əminəyə ürəkdən bağlanıb və həmin körpəni övladlığa götürüb...

Leyla xanımın qayəsi xeyirxahlıq, insanlığın var olması naminə, əlindən gələni heç zaman əsirgəməməkdir...

Və o özü bu barədə deyir ki, "əgər fayda verə biləcək bir iş görməyə imkan varsa, mən həmin imkandan məmnuniyyətlə istifadə edirəm".

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***











# Azərbaycan növbəti beynəlxalq tədbirə evsahibliyi edir

## UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakıda keçirilməsi ölkəmizin yüksək qlobal nüfuzunun təsdiqidir

*Əvvəli 1-ci səh.*

Mehriban Əliyevanın Azərbaycan mədəniyyətinə verdiyi töhfələr UNESKO-nun diqqətindən yayınmayıb. 2004-cü il avqustun 13-də Mehriban Əliyeva Azərbaycanın şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz səylərinə görə UNESKO-nun "Xoşməramlı səfiri" adına layiq görülüb. Mehriban Əliyeva mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsindəki xidmətlərinə görə UNESKO-nun "Qızıl Motsart" medalı ilə də təltif edilib.

Məhəmməd Füzulinin 500 illik, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik, N.Tusinin 800 illik, Mirzə Kazımbəyin 200 illik, akademik Yusif Məmmədəliyevin 100 illik, rəssam-xalçaçı Lətif Kərimovun 100 illik, "Leyli və Məcnun" operasının ilk tamaşasının 100 illik, akademik Musa Əliyevin 100 illik, yazıçı Mir Cəlal Paşayevin 100 illik, rəssam Səttar Bəhlulzadənin 100 illik, İlyas Əfəndiyevin 100 illik, Məhsəti Gəncəvinin yaradıcılığının 900 illik, Üzeyir Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasının 100 illik, "Kitabi-Dədə Qorqud" eposunun alman dilinə tərcüməsinin və nəşrinin 200 illik yubileylərinin UNESKO səviyyəsində qeyd edilməsi ölkəmizlə bu təşkilat arasındakı uğurlu əməkdaşlığın bariz nümunəsidir. Bütün bunlarla yanaşı, Azərbaycan muğamı, xalçası, aşıq musiqisi, tar ifası, Novruz bayramı, kəlağayı sənəti, Lahıc misgərlik sənəti UNESKO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ siyahısına, Çövkən-Qarabağ atüstü oyun ənənəsi isə qurumun təcili qorunmağa ehtiyacı olan Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilib. Eyni zamanda Qız Qalası, İçərişəhər, Şirvanşahlar sarayı və Qobustan Dövlət Tarix və Bədii Qoruğu da UNESKO-nun Ümumdünya İrs Siyahısına salınıb.

Azərbaycan-UNESKO əməkdaşlığı barədə Bakıda səfərdə olan UNESKO-nun Baş direktoru Odre Azulenin Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva ilə görüşlərində də söz açıldı.

İlham Əliyevlə görüşdə Odre Azule Azərbaycanın mədəniyyətlərarası dialoqa verdiyi töhfəni yüksək qiymətləndirdi və ölkəmizdə mədəni və tarixi irsin qorunması və təbliği istiqamətində görülən işlərin əhəmiyyətini qeyd etdi.

Prezident İlham Əliyev mədəniyyətlərarası dialoq barədə danışaraq "Bakı Prosesi"nin artıq böyük qlobal platformaya çevrildiyini və müxtəlif beynəlxalq təşkilatlar tərəfindən dəstəkləndiyini dedi. Həmçinin ölkəmizdə mədəni və təbii irsin qorunmasının gündəlikdə duran ən önəmli məsələlərdən biri olduğunu qeyd etdi.

UNESKO-nun Baş direktorunun Mehriban Əliyeva ilə görüşündə də Azərbaycanla bu təşkilat arasında əməkdaşlığın bir çox sahələrdə - mədəniyyət, elm, təhsil və digər istiqamətlərdə çox uğurla inkişaf etdiyi məmnunluqla vurğulandı. "Bütün bu illərdə birgə keçirilən toplantılarda, böyük beynəlxalq tədbirlərdə UNESKO ailəsinin üzvü olmaq mənim üçün çox xoşdur, böyük şərəfdir", - deyən Mehriban Əliyeva bu il əməkdaşlığın 27-ci ildönümünün qeyd ediləcəyini bildirdi, dünya mədəniyyət irsinin qorunmasında gələcəkdə də çox uğurlu əməkdaşlıq qurulacağına əminliyini ifadə etdi. UNESKO-nun xoşməramlı səfiri onu da bildirdi ki, ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra mədəni, tarixi və dini irsin qorunması dövlət siyasətinin əsas prioritetlərindən birinə çevrilib və son illərdə Azərbaycanda UNESKO-nun tərəfdaşlığı ilə bir sıra möhtəşəm beynəlxalq forumlar, tədbirlər uğurla təşkil edilib.

Beləliklə, Bakı növbəti beynəlxalq tədbirə evsahibliyi edir. Mühüm beynəlxalq əhəmiyyətə malik belə bir tədbirin Bakıda keçirilməsi ölkəmizlə UNESKO arasında tərəfdaşlıq münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyini göstərir. Heydər Əliyev Mərkəzində keçirilən UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında 2500-ə yaxın qonaq iştirak edəcək. Dünyanın müxtəlif ölkələrini təmsil edən iştirakçılar dünya irsinin qorunması üçün görülməsi vacib olan tədbirləri müzakirə edəcəklər.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Dünya mədəni irsinin qorunması yolları Bakıda müzakirə olunur

Azərbaycan növbəti dəfə beynəlxalq tədbirə evsahibliyi edir. Bakı Konqres Mərkəzində UNESKO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində iyunun 27-də Abidə Menecerləri Forumu öz işinə başlamışdır. Xatırladaq ki, "Dünya mədəni və təbii irsinin qorunması haqqında Konvensiya"ya (1972) uyğun olaraq Dünya İrsi Abidə Menecerləri Forumu yeni təşəbbüs kimi 2017-ci ildə Polşanın Krakov şəhərində işə başlayıb və artıq üçüncü dəfədir keçirilir. Cənubi Qafqazın, dünya ictimaiyyətinin maraq dairəsində olan bu forum haqqında bir sıra xarici ölkələrin televiziya kanallarında məlumatlar verilib. Dünya mədəni irsi ilə bağlı məsələlərin müzakirə edildiyi bu tədbirə 50-dən çox ölkəni təmsil edən 70-ə yaxın nümayəndə qatılıb.

Dünya İrs Komitəsinin 42-ci sessiyasında Azərbaycan bir il müddətinə komitənin sədri seçilib. Ölkəmiz üçün böyük əhəmiyyətə malik belə bir qərarın qəbul edilməsi sözsüz ki, Azərbaycanın UNESKO ilə tərəfdaşlıq münasibətlərinin yüksək səviyyədə olmasının göstəricisidir. İyulun 4-dək davam edəcək forum Mədəniyyət Nazirliyi, UNESKO-nun Dünya İrs Mərkəzi, Mədəni mülkiyyətin mühafizəsi və bərpasının öyrənilməsi üzrə beynəlxalq mərkəzin (ICCROM), "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi və Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin birgə təşkilatçılığı ilə reallaşmışdır. Dünyanın bu kimi mötəbər beynəlxalq təşkilatlarının öz tədbirlərini Bakıda keçirməsi həm də Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzundan xəbər verir.

Dünya İrs Komitəsinin 43-cü sessiyası ilə bağlı yaradılmış təşkilat komitəsinin sədri, mədəniyyət naziri Əbülfəs Qarayev forumu açaraq bildirmişdir ki, UNESKO ilə münasibətlərin inkişafında, qarşılıqlı əlaqələrin möhkəmlənməsində Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xidmətləri əvəzsizdir. Daha sonra nazir müasir dünyada abidələrə və tarixi irsə olan münasibətdən, mədəni irsin mühafizəsi, bununla əlaqədar respublikamızda tarixi abidələrə və mədəni irsə göstərilən dövlət qayğısından və s. ətraflı məlumat vermişdir.

Hazırda UNESKO-nun Dünya İrs Konvensiyasına uyğun olaraq Dünya İrs Siyahısına 276 milyon hektardan çox ərazini əhatə edən 1000-dən çox abidə daxildir. İndi Dünya İrs Siyahısında cəmi 1000 abidə var. Azərbaycandan iki abidə - həm İçərişəhər, həm də Qobustan qoruğu Dünya İrs Siyahısına daxildir. Ölkəmizdə bir neçə məkanın da UNESKO-nun Dünya İrs Siyahısına namizəd kimi irəli sürülməsi nəzərdə tutulub. Hazırda Şəkinin Xan sarayı və şəhərin qədim hissəsinin, Hirkan Milli Parkının, Naxçıvandakı türbələrin bu siyahıya salınması üzərində iş gedir. Onların idarə edilməsi, qlobal çağırış dövründə vəziyyətlərinin müzakirəsi və mühafizəsi diqqətdə olan məsələlərdir.

Tədbirdə UNESKO-nun Dünya İrs Mərkəzinin direktoru Mextild Rossler, eləcə də "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin rəisi Əsgər Ələkbərov çıxış edərək mədəni irsin qlobal mahiyyətindən söz açmışlar. Sonra Mədəni mülkiyyətin mühafizəsi və bərpasının öyrənilməsi üzrə beynəlxalq mərkəzin (ICCROM) baş direktoru Uebber Ndoronun forum iştirakçılarına ünvanlanmış videomüraciəti təqdim olunmuşdur. Abidə Menecerləri Forumunun iştirakçıları yeni biliklərin əldə edilməsi, işgüzar əlaqələrin qurulması və təcrübə mübadiləsi baxımından forumun işini və görülmüş təşkilati məsələləri yüksək qiymətləndirmişlər.

Dünyanın ən nüfuzlu Mədəni İrs Siyahısına daxil olan məkanların rəhbərlərinin iştirak etdikləri bu mötəbər forumda Azərbaycan nümayəndələri ölkəmizdəki real vəziyyəti diqqətə çəkmiş, Bakıda, Naxçıvanda, Şəkidə, Gəncədə və s. yerlərdə görülən işlər barədə ətraflı məlumat vermiş, eyni zamanda onların təcrübəsini gələcəkdə digər ölkələrdə də tətbiq etməyin vacibliyini bildirmişlər. Azərbaycanlı mütəxəssislərin fikrincə, təcrübə mübadiləsi olduqca gərəklidir. Onlar əmindirlər ki, bu konfransdan sonra Azərbaycanda bir neçə məkanın siyahıya salınması prosesi sürətlənəcək.

Sessiya iştirakçıları istirahət günlərində İçərişəhərdə, Şirvanşahlar sarayında, Dağüstü parkda, Dənizkənarı Milli Parkda, Azərbaycan Milli İncəsənət Muzeyində, Azərbaycan Tarixi Muzeyində və şəhərimizin digər görməli yerlərində olublar.

Sessiya çərçivəsində Azərbaycanda ilk dəfə respublika sənətkarlıq festivalı keçiriləcək. Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə baş tutacaq bu tədbirdə bir sıra dövlət orqanları, özəl və qeyri-hökumət təşkilatları və sahibkarlar dəstək göstərirlər. I Respublika Sənətkarlıq Festivalının tərəfdaşları sırasında "I Love Baku" şəbəkəsi, Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Azərbaycan Sənaye Korporasiyasının "Azəripək" MMC-si, Səbail Rayon İcra Hakimiyyəti, "ABAD", Yasamal rayon Əlillər Təşkilatı, Bakı Milli Geyim Evi, Türbət Mədəniyyət Mərkəzi, "Libraff" mağazalar şəbəkəsi xüsusi yer alıblar.

Beynəlxalq təcrübə nəzərə alınaraq Bakıda insanların daha rahat gəzmələri üçün festival açıq səma altında, Nizami küçəsində - Azərbaycan Akademik Dövlət Gənc Tamaşaçılar Teatrının qarşısındakı meydanda təşkil ediləcək.

Tədbirdə Bakı və Sumqayıt şəhərləri, habelə Abşeron yarımadasının digər yerlərində fəaliyyət göstərən təxminən 60, bölgələrdən isə 40-a yaxın sənətkar dəvət edilib. Festival ərəfəsində əl işlərinin marketinqi sahəsində müasir, innovativ üsulların istifadəsi, həmçinin milli dəyərlərin yaşadılması istiqamətində mütəxəssislərin və sənətkarların iştirakı ilə Mirzə Fətəli Axundzadə adına Milli Kitabxanada konfrans keçiriləcək.

Festivalda gənc nəslə, ziyarətçilərə əl işləri sənətinin texnologiyasının öyrədilməsi, nümayiş etdirilməsi məqsədilə "master club" qurulacaq və ustad dərsləri təşkil ediləcək. Yeni əl işləri sənətinin nümunələrinin təqdim olunması və onlara dəstək göstərilməsi üçün "wall art" və "street art" üçün şərait yaradılacaq. Festivalın cəlbediciliyinin artırılması üçün "şəhərcik" plan-quruluşundan istifadə ediləcək. Belə ki, uyğun və ya yaxın sənətkarlıq istiqamətləri eyni stenddə yerləşdiriləcək və bu stendlər simvolik olaraq sənətkarlıq kəndini, qəsəbə və məhəlləsini formalaşdıracaq. Beləliklə, festivalı ziyarət edən şəxslər "xalçaçılar kəndi", "dulusçular məhəlləsi", "misgərlər qəsəbəsi" və s. ilə tanış olacaqlar.

Mədəniyyət Nazirliyinin tabeliyində olan təşkilatların, habelə yaradıcı birliklərin iştirakı ilə festival günlərində - hər gün bir saat konsert proqramı təşkil olunacaq. Festivalda uğurla iştirak edən, əl işlərinin keyfiyyəti və aktuallığı ilə seçilən sənətkarların xarici ölkələrdə keçirilən beynəlxalq sərgi-yarmarkalarda, habelə digər tədbirlərdə iştirakına kömək göstəriləcək.

UNESKO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində Abidə Menecerləri Forumu öz işini uğurla davam etdirir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Tamerlan zirvəsi

## Unudulmazlar

**Bir insanın ən böyük xoşbəxtliyi nədir? Bu suala bəlkə də insanlıq var olandan cavab axtarılır. Hər kəs də öz düşüncəsindən çıxış edərək cavab verir. Kimisi üçün var-dövlət, kimisi üçün mal-mülk, vəzifə, kimisi üçün sadəcə sevdiklərinin əhatəsində sağlam və şad-xürrəm yaşamaqdır xoşbəxtlik... Amma ən böyük xoşbəxtlik bəlkə də bu dünyadan yaxşı insan kimi ad qoyub köçməkdir. O adı insan xasiyyəti, başqalarına münasibəti, əməlləri, əxlaqı, həyat tərzi ilə qazanır. Və bu, elə bir qazanca, var-dövlətə çevrilir ki, özü bu həyatda olmayanda belə, illərlə, qərinələrlə tükənmir.**

**Yaxşı insan olmaqla bərabər çalışdığın sahənin peşəkarı, bilicisi səviyyəsinə yüksəlmək xoşbəxtliyi isə heç bir ölçüyə, miqyasa sığmır. Bu da hər kəsə nəsib olmur. Yalnız seçilmişlərin qismət payına düşür. Tamerlan Əliyev də məhz belə xoşbəxtlərdən - seçilmişlərdən idi...**

**"Unudulmazlar"da Azərbaycan tibb elminin görkəmli nümayəndəsi, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, tibb elmləri doktoru, professor Tamerlan Əliyevin həyat kitabını vərəqləyəcəyik.**

### *Tamerlan Əziz oğlu Əliyev*

1921-ci il oktyabrın 3-də Naxçıvanın Şahtaxtı kəndində dünyaya gəlib. 1940-1944-cü illərdə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsində təhsil alıb. 1945-ci ildə institutun fakültə terapiyası kafedrasında işə başlayıb. 1970-1990-cı illərdə kafedranın professoru olub və ora rəhbərlik edib.

Həkimlik fəaliyyətinə başladığı ilk illərdə Naftalan neftinin orqanizmin reaktivliyinə təsirinin öyrənilməsinə böyük əmək sərf edən T.Əliyev endokrinologiya sahəsində də elmi tədqiqatlar aparıb.

T.Əliyevin şəxsi iştirakı və səyi nəticəsində 1975-ci ildə Fuad Əfəndiyev adına 4 nömrəli Bakı şəhər Klinik Xəstəxanası bazasında 90 çarpayılıq endokrinologiya şöbəsi fəaliyyətə başlayıb. Eyni zamanda Azərbaycanda ilk intensiv kardioloji yardım şöbəsi təşkil edilib, xəstəxanada müasir cihaz və avadanlıqlarla təmin edilmiş reanimasiya və intensiv terapiya bloku, funksional diaqnostika şöbəsi yaradılıb. T.Əliyevin Azərbaycan səhiyyəsində xidmətlərindən biri də onun təşəbbüsü və təşkilatçılığı ilə inşa edilərək fəaliyyətə başlayan C.M.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutu olub. Görkəmli alim uzun illər Səhiyyə Nazirliyinin baş terapevti, Bakı şəhər Səhiyyə İdarəsinin baş endokrinoloqu, ictimai əsaslarla Tibb İnstitutunun elmi işlər üzrə prorektoru vəzifələrini yerinə yetirib.

Professor T.Əliyev 250-dən çox elmi əsərin, o cümlədən 12 monoqrafiyanın, dərslik və dərs vəsaitlərinin, metodiki tövsiyələrin və səmərələşdirici təklif, ixtiraların, həmçinin çoxsaylı elmi-kütləvi məqalələrin müəllifi olub. Rəhbərliyi altında 25 elmlər namizədi, 5 elmlər doktoru hazırlanıb.

"Klinik-diaqnostik laborator tədqiqat üsulları" adlı monoqrafiyası Azərbaycan SSR Dövlət mükafatı ilə təltif edilib. 1981-ci ildə "Əməkdar elm xadimi" fəxri adına, müxtəlif illərdə "Şərəf nişanı" və "Oktyabr İnqilabı" ordenlərinə, SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin qızıl medalına, "Səhiyyə əlaçısı" döş nişanına, Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanına və digər təltiflərə layiq görülüb.

Tamerlan Əliyev 1997-ci il aprel 7-də dünyasını dəyişib, Fəxri xiyabanda dəfn edilib.





Zərifə və Tamerlan Əliyevlər

### Tibb İnstitutuna imtahansız qəbul olunur

Tamerlan Əliyev 3 oktyabr 1921-ci ildə Naxçıvanın Şahtaxtı kəndində gələcəyin böyük dövlət və elm xadimi Əziz Əliyevin ailəsində dünyaya göz açmışdı. Ailənin ilk övlad payı idi. Onun dünyaya gəlməsindən 3 il əvvəl - 1918-ci ildə valideynləri əzəli Azərbaycan torpağı olan İrəvandan məcburi köçkün salınmış, gəlmə ermənilərin törətdikləri vandalizmin qurbanı olmuşdular. Əziz Əliyev 1923-cü ilin mayında ailəsi ilə birlikdə Naxçıvandan Bakıya köçəndə isə Tamerlanın 2 yaşının tamamına az qalırdı.

Tamerlan Əliyev sonrakı həyatının bütün dövrlərini Bakıda keçirmiş, bu şəhərdə böyüyüb kamilləşmişdi. O, ilk təhsilini Bakıdakı 3 nömrəli ibtidai məktəbdə alır, sonra isə 176 nömrəli orta ümumtəhsil məktəbini bitirir. Hələ uşaqlıq çağlarından alicənablıq, həssaslıq və ziyalılıq ruhunda tərbiyə almış Tamerlan atasının bütün müsbət keyfiyyətlərini özündə əxz etmiş, eləcə də həkimliyə olan sevgi genlə, qanla ona da keçmişdi. 1940-cı ildə orta məktəbi əla qiymətlərlə başa vuran yeniyetmə o dövrün qaydalarına görə qəbul imtahanlarından azad edilir, həkim olmaq arzusunu reallaşdırmaq məqsədilə Azərbaycan Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə birbaşa qəbul olunur.

Qaynar tələbəlik həyatı keçirən gənc Tamerlan institutun bütün ictimai işlərində fəal iştirak etməklə bərabər, dərslərini də əla qiymətlərlə oxuyur. O, tələbəlik illərində fakültənin divar qəzetinin redaktoru, institutun tələbə həmkarlar



təşkilatının büro üzvü olur. Təhsildə əldə etdiyi uğurlara görə dövrünün ən yüksək tələbə mükafatı olan Stalin təqaüdünə layiq görülür. 1943-cü ildə isə təhsildə və ictimai işlərdə əldə etdiyi nailiyyətlərə görə o zamanlarda nadir hallarda rastlanan yüksək təltiflə - Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanı ilə təltif olunur.

T.Əliyev müharibə illərində dərsdənkənar vaxtlarda hərbi hospitalda işləyir, yaralı əsgərlərə tibbi xidmət göstərirdi. Müharibə dövründə Tibb İnstitutunda təhsil müddəti 4 ilə qədər azaldıldığı üçün Tamerlan Əliyev artıq 1944-cü ildə institutu bitirərək əmək fəaliyyətinə başlayır. Lakin o, hələ 1943-cü ilin sentyabrında sonuncu kursda oxuyarkən artıq Elmi-Tədqiqat Epidemiologiya və Mikrobiologiya İnstitutunda epidemioloq vəzifəsini yerinə yetirir, 1944-cü ildə isə Azərbaycan Dövlət İnstitutunun mikrobiologiya kafedrasında assistent kimi işləyir. Gənc məzun 1945-ci ildən etibarən Azərbaycan Dövlət Tibb İnstitutunun fakültativ terapiya (indiki II müalicə-profilaktika fakültəsinin daxili xəstəliklər kafedrası) kafedrasında əvvəlcə kliniki ordinator, sonra isə assistent, dosent, professor və kafedra müdiri vəzifələrində çalışır və ömrünü bütünlüklə bu kafedradakı əmək fəaliyyətinə həsr edir.

### Bütün vəzifələrdən imtina etdi

*Tamerlan Əliyevin qızı - ATU İİ müalicə-profilaktika fakültəsinin daxili xəstəliklər kafedrasının endokrinologiya şöbəsinin professoru, tibb elmləri doktoru Tamfira Əliyeva deyir ki, bu kafedradakı iş atası üçün çox doğma idi. Axı Əziz Əliyev də məhz o kafedrada çalışmışdı. Yəqin həm də bu səbəbdən Tamerlan Əliyev bu kafedranı heç bir yüksək vəzifəyə dəyişmir.*

- Atam çox zəhmətsevər, işgüzar, çalışqan olub. Həm məktəb və tələbəlik illərində, həm də həkim kimi fəaliyyətində. Yəni atasının vəzifəsinə arxayın olmurdu. Heç nədən də çəkinmirdi. İstəmirdi desinlər ki, Əziz Əliyevin oğlu nədənsə çəkinir, uzaq durur. Bizə də nəsihət edirdi ki, "heç kimə arxayın olmayın, nəyəsə güvənməyin. Yalnız və yalnız oxuyun. Özünüz zəhmət çəkib nəyəsə nail olun ki, başım uca olsun". Çünki özü bu məktəbi keçmişdi, bizdən də bunu tələb edirdi.

*T.Əliyevin şəxsi iştirakı və səyi nəticəsində 1975-ci ildə Fuad Əfəndiyev adına 4 nömrəli Bakı şəhər Klinik Xəstəxanasının bazasında 90 çarpayılıq endokrinologiya şöbəsi yaradılır. Novator alimin təşəbbüsü ilə keçmiş SSRİ miqyasında ilk dəfə olaraq bu xəstəxananın nəzdində miokard infarktı və şəkərli diabeti olan xəstələrin distansion diaqnostikası, təxirəsalınmaz yardımı, həmçinin intensiv terapiyası təşkil olunur. Bununla yanaşı, daxili xəstəliklər kafedrasının bazasında Azərbaycanda ilk intensiv kardioloji yardım şöbəsi təşkil edilir, xəstəxanada müasir cihaz və avadanlıqlarla təmin edilmiş reanimasiya və intensiv terapiya bloku, funksional diaqnostika şöbəsi yaradılır. Tamerlan Əliyevin Azərbaycan səhiyyəsindəki xidmətlərindən biri də bilavasitə onun təşəbbüskarlığı və təşkilatçılığı ilə inşa edilərək fəaliyyətə başlayan C.M.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutu olur. Lakin Tamerlan müəllim orada heç bir vəzifə tutmaq istəmir.*



Əziz, Zərifə və Tamerlan Əliyevlər

- Çox təvazökar insan idi atam. İstəmirdi kimsə desin ki, vəzifədən istifadə edir. Yüksək vəzifələrdə olması üçün qarşısına çoxlu şanslar çıxmışdı. Hətta 80-ci illərdə atama yüksək vəzifə təklif edildi. Ancaq atam istəmədi. Dedi, "bu kafedraya necə gəlmişəmsə, elə də gedəcəm. Atam da burda işləyib. Bura mənə o qədər doğmadır ki, heç nəylə, heç bir vəzifə ilə əvəz edə bilmərəm. Öz işim mənə kifayət edir". Atamın vida mərasimində çıxış edən zaman Heydər Əliyev bu faktı da açıqlamışdı. Demişdi, "Tamerlan Əliyevin vəzifədə, mal-dövlətdə gözü olmadı, şəxsi münasibətdən istifadə etmədi". Atam həqiqətən də gözütox, sadə insan olub. Ömrünün sonuna kimi yaşadığı evi də dəbdəbədən uzaq, sadə bir mənzil idi. Deyirdi, "mənə heç nə lazım deyil, eləcə də vəzifə. Mən siyasi xadim deyiləm, həkiməm, insanlara kömək etməliyəm - bu, mənim borcumdur".



### "Deməsinlər ki, Tamerlan Əliyevin qızı bahalı geyimlər geyinir"

*O, həkim kimi borcunu da layiqincə yerinə yetirirdi. Qızı deyir ki, atası olduqca xeyirxah insan idi. Yanına gələnləri heç vaxt naçar şəkildə geri qaytarmazdı. Qapısı həmişə hamının üzünə açıq olardı. Hər kəsə də əlindən gələn köməyi edərdi.*



Əziz, Tamerlan və Cəmil Əliyevlər

- Atamın kabineti 4 nömrəli xəstəxanada idi. Hər gün səhər saat 8-də işdə olurdu. Xəstələr pənah tapmaq üçün yanına axışırdı. Yanına gələn istənilən adamı dinləyir, bacardığı qədər yardım edirdi. Hamıya da yaxşılıq etməyə çalışırdı. Heç kəsə pislik etməzdi. İndinin özündə elə bir adam yoxdu desin ki, Tamerlan Əliyev nə vaxtsa onu incidib, xətrinə dəyib, pislik edib. Özünü göstərməyi, gözə soxmağı sevmirdi. Əziz Əliyev kimi şəxsiyyətin oğlu olduğunu nümayiş etdirməzdi. Hamı ilə eyni səviyyədə görünməyə çalışırdı. Dostlarından seçilməmək üçün əlindən gələni edirdi. Qrup yoldaşları ilə daim görüşürdülər. O, görüşlərin heç birindən qalmazdı. Deyirdi niyə başqalarından seçilməliyəm? Sakit, təvazökar, düzgün həyat sürüb atam. O, əsl insanlıq məktəbi idi. Məndən, bacım Nigardan, övladlarımızdan da o cür olmağı tələb edirdi.

*Tamfira Əliyevanın tibb sahəsini seçməyi də əslində atasının təkidi ilə baş verib. Hələ orta məktəbdə oxuyandan pedaqoq olmağı arzulayırdı. Tibb nədənsə onu o qədər də özünə çəkmirdi. Hətta bir az qorxurdu da. Uşaq ağlı ilə düşünürdü ki, birdən xəstəsi ölər və onu həbs edərlər. Odur ki, məktəbi bitirəndə atasına öz seçimini bildirir. Lakin Tamerlan müəllim onu fakt qarşısında qoyur - "Tibb İnstitutuna girməlisən. Biz həkimlər nəsliyik, sən də bu nəslin yolunu davam etdirməlisən". Beləcə, atasının qərarı ilə razılaşaraq Tibb İnstitutuna daxil olur. Və indi bu seçimindən peşiman da deyil...*

- Ali məktəbə getdiyim gün atam məni yanına çağırıb məsləhətlərini verdi. İlk növbədə dərslərimi yaxşı oxumalı olduğumu tapşırdı. Dedi "geyiminə fikir verməlisən ki, başqalarından seçilməyəsən. Heç kim deməsin ki, Tamerlan Əliyevin qızı bahalı geyimlər geyinir. Dərslərini yaxşı oxu ki, məni utandırmayasan". Mən də çalışırdım yaxşı oxuyum ki, atama şikayət etməsinlər, məndən razı qalsın. 1981-ci ildə Əziz Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutunda işə düzəldim. Böyük nəvə kimi babamın adı-



nı daşıyan institutda işləməyimi bibim Zərifə Əliyeva da arzulayırdı. 14 il orda çalışdım. Müharibə illərində bütün ölkədə olduğu kimi, institutda da vəziyyət dəyişdi. 1995-ci ildə atama dedim institutdan getmək istəyirəm. Soruşdu harda işləmək fikrin var? Dedim Tibb Universitetində, tələbələrlə işləmək daha maraqlı olacaq. İndiyə kimi xatirimdədir. Bu söhbətimiz olanda şənbə günü idi. Razılaşdı. Vaxt itirmədən institutun rektoru Məmməd Cavadzadənin yanına getdim. Köçürülmə əmrimi imzaladı, uğur dilədi. Sonra da Tibb Universitetinin rektoru Əhliman Əmiraslanovun qəbulunda oldum. Dedi ki, "Tibb İnstitutunun 4 nömrəli xəstəxanadakı kafedrasında işləyəcəksən. Baban, atan o kafedrada çalışıb, sən də orda işləməlisən". Beləcə, atamın çalışdığı kafedrada işə başladım. Onda da tapşırdı ki, "heç kimdən seçilmə. İşə hamıdan tez gəl, hamıdan gec get". Özü 8-də işdə olurdu deyə, məndən də bunu tələb edirdi. O vaxtdan indiyə qədər səhər 8-də işdə olmağı vərdiş halına gətirmişəm. İşə başlamazdan qabaq atamdan soruşdum ki, əvvəl həkimlərlə işləyirdim, amma indi tələbələrlə işləyəcəm. Onlarla necə davranım? Dedi mümkün qədər güzəştə get və kömək et. Birinci növbədə ədalətli olmaq lazımdır. Pislik, ziyanlıq etmək olmaz. İnsanları sevmək, kömək etmək lazımdı. Atam mənə bunları öyrətdi. Sonradan anladım ki, mən necə böyük məktəb keçdim. İndi həm həkiməm, həm də pedaqoq... Tələbələrə dərs verirəm.

### "Atamla Zərifə bibim can bir, qəlb bir idilər"

*Tamfira xanımın sözlərinə görə, atası övladlarına, nəvələrinə münasibətdə olduqca qayğıkeş, istiqanlı idi. Onları sevgi, diqqət və qayğı ilə əhatə edirdi. Eləcə də bacı-qardaşları ilə münasibəti çox gözəl, səmimi idi, hamısını çox istəyirdi. Amma bacısı Zərifə ona daha əziz və dəyərli idi. Zərifə xanım Tamerlan Əliyevdən iki il sonra dünyaya gəlmişdi. Bir yerdə oyunlar oynamış, deyib gülmüş, bir yerdə böyümüşdülər. Eyni institutda təhsil almışdılar. Üstəlik eyni xəstəxanada çalışırdılar.*



- Atamla Zərifə bibim çox yaxın, mehriban idilər. Elə bil bir almanı iki yerə bölmüsən. Tələbə olanda tez-tez atamın yanına kafedraya gedirdim. Zərifə bibi də oftalmologiya şöbəsində professor kimi işləyirdi. Hər gün atamın yanına gəlirdi və ona yeməyə nəsə gətirirdi, məcbur edirdi mütləq yesin. Kefini, əhvalını soruşurdu. Ana kimi qayğısına qalırdı. Yaxşı olduğunu görüb, gedib rahat işləyirdi. Can bir, qəlb bir idilər... Bacı-qardaşdan daha çox sirdaş idilər. Atamın ürəyində nələr vardısa, bibim bilirdi, ona məsləhətlər verirdi. Atam onun məsləhətlərinə qulaq asırdı. Çünki çox ağıllı, müdrik qadın idi Zərifə bibim.

Elə yeznəsi Heydər Əliyevlə də atam çox yaxın idi. Bir-birlərinə hörmət edirdilər. Həmyaşıd sayılırdılar deyə söhbətləri yaxşı tuturdu. Ulu Öndər Heydər Əliyev kənardan, televiziyadan çox zəhmli, ciddi görünürdü. İclaslarda, çıxışlarda hamı ondan çəkinirdi. Şəxsən mən özüm də ondan çəkinirdim, baxışından əsirdim. Elə baxırdı, elə bil daxilimi, fikirlərimi oxuyur. Amma ailədə, həyatda tamam başqa insan idi. Onu evdə görəndə inana bilmirdim ki, bu, həmin insandı?! Zərifə bibimlə bir-birlərini çox sevirdilər. Hər dəfə evlərinə gedəndə bibimi mətbəxdə yemək hazırlayan görürdüm. Bir dəfə dedim "bibişka, gəl, otur da". Dedi "yox, Heydərin yeməyini gərək özüm bişirib, qarşısına qoyum". Yalnız onun əlindən çıxan yeməyi yeyirdi. Özü də bibim çox dadlı yeməklər bişirirdi. İrəvan mətbəxini gözəl bilirdi. Deyə-gülə bir süfrə arxasında yemək yeyirdik. Elə olurdu ki, bibim piano çalırdı, Heydər Əliyev mahnı oxuyurdu. Yaxud atamla zarafatlaşırdılar, lətifələr danışırdılar. Çox səmimi mühit olurdu...



Tamerlan və Tamfira Əliyevlər

### "Atamı həyata bağlayan tellər qırılırdı tədricən..."

*Bir-birinə ayrılmaz tellərlə bağlı olan bacı-qardaşı zamansız, amansız ölüm ayırır. 1985-ci ildə ana əvəzi saydığı Zərifə Əliyevanın vəfatı qardaşı Tamerlana ağır zərbə olur. O qədər dərindən sarsılır ki, heç cür özünə gələ bilmir. Və*



*bu ölüm Tamerlan Əliyevin də ölümünü yaxınlaşdıran ilk səbəb olur.*

- Zərifə bibimin ölümü atama o qədər pis təsir elədi ki, söz də tapmıram ifadə etməyə. O vaxtdan başladı fikrə getməyə. Həddindən çox dərd çəkirdi. Onsuz da çox danışan deyildi, bibimin ölümündən sonra isə lap susqun oldu, içinə qapandı. Hər şeyi ürəyinə salırdı. Çox darıxırdı bacısı üçün. Hər yerdə gözü onu axtarırdı. Əsasən də işdə. İşdə olduğu müddətdə gözləyirdi ki, Zərifə yenə yanına gələcək. Zərifə bibim balaca bacısı olsa da, atam onu ana kimi sevirdi. Bütün mehrini ona salmışdı. Ona görə də yoxluğu ilə barışa bilmirdi. Heç kimə heç nə demirdi. Amma görürdük ki, həyat eşqi yavaş-yavaş sönür. Halbuki biz onu sevgiylə, diqqətlə, qayğıyla əhatələmişdik.

*Beləcə, Zərifəsiz illər bir-birini əvəzləyir. Tək ailə üzvləri yox, iş yoldaşları da Tamerlan Əliyevin getdikcə həyatdan mənən qopduğunu görürlər. İllərini həsr etdiyi, çox sevdiyi işi də daha onu əvvəlki kimi özünə çox çəkmir. Artıq kafedraya da az-az getməyə başlayır. Özüylə, fikirləriylə baş-başa qalmağa üstünlük verir. Həyat da ona qarşı nainsaf davranır. Ana kimi bağrına basdığı Zərifədən sonra ölüm sevimli bacısı Güləranı də zamansız və faciəvi şəkildə onun əlindən alır. Amma bu da hələ son deyildi...*

- O dövr sanki əzizlərimizin itkilər dövrü idi. Zərifə, Ləzifə, Dilbər, Gülarə bibilərimin yoxluğu atamı çox incidirdi. Zərifə bibimdən sonra atam Dilbər bibimin yoldaşı Fərrux Məmmədovla bölüşürdü dərdini, kədərini. Sirdaş olmuşdular. Xasiyyətləri oxşar idi deyə, sözləri düz gəlirdi. Çox gözəl insan idi Fərrux əmi. Onun ölümü ilə atam daha bir zərbə aldı həyatdan və ayağa qalxa, toparlana bilmədi. Həyat maraqsız olmuşdu onun üçün. Biganələşmişdi sanki. Məsələn, əvvəllər



Əziz, Tamerlan və Tamfira Əliyevlər

gündə 2 dəfə bulvara gedirdi. Sonra səhhətinə görə gedə bilmədi. Buna görə də fikir edirdi ki, gör nə hala düşmüşəm. Getmək istəsə də, tək qoymurduq, mən, bacım, ya da oğlum Nadir onunla birlikdə gedirdi. Vaxt vardı hər il Kislovodska istirahətə gedirdi. Orda özünü yaxşı hiss edirdi, səhhətinə, əhvalına müsbət təsir edirdi. 90-cı illərdən sonra getmək çətinləşdi. Qaldı Bakıda. Bağı isə heç sevməzdi. Adətən səhər gedib, axşam qayıdardı. Məcbur olduqda isə bir gecədən artıq qalmırdı. Bunlar da atama istər-istəməz pis təsir etdi. Həm səhhətində, həm əhvalında. Bütün bəd hadisələr bir-birinin ardınca baş verirdi. Beləcə, atamı həyata bağlayan tellər qırılırdı tədricən...

Bircə niyə təəssüflənirəm? Atam doktorluq dissertasiyası yazmağımı istəyirdi. Mən o işi uzatdım, sağlığında görə bilmədi. Xəstə olanda mənə bu barədə heç nə söyləməmişdi. Amma incik olduğunu bilirdim. Ümumiyyətlə, mənə heç vaxt nəyisə irad tutmurdu. Bircə baxışı kifayət edirdi. Mən o baxışla qarşılaşmaq istəmirdim. Ona görə çalışırdım hər şeyi qaydasında edim ki, narazı qalmasın. Birdən nəsə xoşuna gəlməz. Mən, bacım, nəvələri indi də o cür yaşayırıq - atamın xoşuna gəlsin. Ona görə doktorluq dissertasiyamı həm də atamın xatirəsinə görə müdafiə etdim ki, qoy ruhu şad olsun.

### "Yaşadığı kimi köçdü bu dünyadan - təmiz və sakit"

*1997-ci il aprelin ilk günləriydi. Hərə öz işinin ardınca getmişdi. Evdə yalnız Tamerlan müəllim və həyat yoldaşı idi. Evin xanımı mətbəxdə yemək hazırlayırdı. Tamerlan müəllim isə kresloda oturub qəzet oxuyurdu. Birdən xanımı otağa girib gözləmədiyi mənzərə ilə qarşılaşır - həyat yoldaşının əlindəki qəzet yerə düşür, huşunu itirir. Demə, işəmik insult keçirmişdi... Dərhal Mərkəzi Klinik Xəstəxanaya çatdırılır. Həkimlərdən ibarət xüsusi konsilium çağırılır. Lazımi müalicələrə başlanılır. Lakin xəstənin həyatını xilas etmək mümkün olmur. İki gün sonra - aprelin 7-də Tamerlan Əliyev gözlərini əbədi yumur.*

- Atam çox səliqəli kişi idi. Geyiminə, təmizliyinə fikir verirdi. Kraxmallı köynək geyinərdi, ətir vurardı. İşdə atamın otağına gedirdim, elə gözəl ətir qoxusu gəlirdi ki... Başlayırdım onu öpüb qucaqlamağa. Zarafatla deyirdi ki, "tez elə, get burdan. Deyəcəklər, profes-



sorun yanına cavan qız gəlmişdi, onu öpürdü". Heç vaxt görməzdin üzündə tük var. Hər gün üzünü təraş edərdi. Atam xəstəxanada yatdığı ikinci günü oğlum Nadir otağına gedib, üzünü təraş elədi, paltarını dəyişib, kraxmallı ağ köynək geyindirdi, ətir vurdu, üzündən öpdü. Bizə dedi "babam həmişə səliqəli olub, qoy elə belə qalsın. İstəmirəm onu başqa cür görsünlər". Elə həmin gün atam bu həyatla vidalaşdı. Və yaşadığı kimi də köçdü bu dünyadan - təmiz, səliqəli şəkildə. Bütün ömrü boyu sakit, təvazökar, düzgün yaşadı. Öləndə də eləcə öldü - heç kimə əziyyət vermədən. İstədiyi kimi...

*Tamerlan Əliyev Azərbaycanın fəxarət ünvanı olan Fəxri xiyabanda atası - həyat müəllimi Əziz Əliyevin və sevimli bacısı Zərifə Əliyevanın yanında torpağa tapşırılır.*

- Atamın həyat müəllimi Əziz Əliyev olub. Bütün müsbət insani keyfiyyətləri ondan əxz edib. Mənim də həyat müəllimim atam Tamerlan Əliyev olub. Bu gün mən babamın, atamın yolunu davam etdirirəm. Artıq 24 ildir bu kafedradayam. Əməkdar həkim, elmlər doktoru, professoram. Və əldə etdiklərimin hamısına görə atama borcluyam. Oğlum Nadir Zeynalov da bu yolun yolçusudur. Tibb üzrə fəlsəfə doktoru, dosentdir. Azərbaycan Tibb Universitetində beynəlxalq əlaqələr üzrə prorektor idi. Fevral ayında Səhiyyə Nazirliyi aparatının rəhbəri təyin olunub. Yəni o da babalarının yolunu davam etdirir. Üstəlik, xarici görünüşcə, xasiyyətcə, danışığı ilə atama çox bənzəyir. Qızım Leyla Talışinski isə tarixçidi, elmlər namizədidir. Babam Əziz Əliyev haqqında dolğun, mükəmməl dissertasiya işi müdafiə etdi. Elə faktları araşdırıb tapdı ki, heç mən onları bilmirdim. Bacım Nigar isə musiqişünasdır. Hazırda ailəsi ilə birlikdə İngiltərədə yaşayır. Düşünürəm ki, atamın ruhu bizimlə fəxr edir. Hər zaman da ona layiq olmağa çalışacağıq. Tamerlan Əliyev kimi atam olduğuna görə özümü xoşbəxt hesab edirəm.



*Ən böyük xoşbəxtlik elə bu deyilmi?! Bu dünyadan yaxşı insan kimi ad qoyub köçmək. Özü həyatda olmasa da, adı ilə yaşamaq. Peşəkarlığı, əməlləri, xidmətləri və insanlığı ilə adını ölümündən sonra belə yaşatmaq.*

*Və bir məktəb yaratmaq - HƏKİMLİK və İNSANLIQ məktəbi...*

*Bu xoşbəxtlik isə yalnız seçilmişlərin qismət payına düşür. Tamerlan Əliyev kimi...*

***Xəyalə MURADLI, "Azərbaycan"***



# Günəş və su

## Bu, pambıqçılıq üçün başlıca şərtdir

Əvvəli 1-ci səh.

Uçan, dağılan, sökülən, vaxtilə çiy kərpicdən tikilmiş evlərin yerində dövlət vəsaiti hesabına daha yaxşı, daşdan möhkəm, etibarlı evlər tikilib sahiblərinə verildi.

Yaradılan süni göllər, su dəryaçaları, çəkilən müasir tipli kanallar, tikilən su nasosları, suvarma sistemində tətbiq edilən yeni texnologiyalar, qazılan çoxlu sayda artezian quyuları və s. ölkəmizdə kənd təsərrüfatının inkişafında əhəmiyyətli rol oynayır. Həyata keçirilən meliorativ tədbirlərin nəticəsində hər il orta hesabla 100 min hektar torpaq sahəsi əkin dövriyyəsinə cəlb olunur. Kollektor-drenaj şəbəkələrinin əsaslı şəkildə yenidən qurulması torpaqların şoranlaşmasının qarşısını alır, hektarın məhsuldarlığını artırır. Aqrar sahənin, xüsusilə əkinçiliyin inkişafı göz qabağındadır. Kənd təsərrüfatı məhsullarımız daxili tələbatı ödəməklə yanaşı, xarici bazara çıxarılır. Yaxın və uzaq ölkələrin mərkəzi və iri şəhərlərində Azərbaycanın ticarət evləri açılır. Belə şəbəkələrin sayı durmadan artmaqdadır. Bu isə öz növbəsində respublikamızın beynəlxalq aləmdəki nüfuzunun yüksəlməsi ilə yanaşı, ölkəyə valyuta daxilolmalarının artımı deməkdir. Bunlar Prezident İlham Əliyevin qarşıya qoyduğu vəzifələrin icrası sayəsində mümkün olmuşdur. Bu gün təməli qoyulan hər hansı bir məsələ, layihə sabah öz faydasını, səmərəsini verəcək. Bu haqda düşünərkən ölkəmizin regionlarında meliorasiya-irriqasiya sahəsində görülən işlər, bir-birinin ardınca həyata keçirilən tədbirlər göz önündən gəlib keçir. Bunlar ona görədir ki, Ulu Öndər Heydər Əliyev siyasəti həyati əhəmiyyət kəsb edən meliorasiya, su təsərrüfatı sahəsində də uğurla davam və inkişaf etdirilir. O cümlədən, Biləsuvar rayonunda da.

Biləsuvar respublikamızın iri kənd təsərrüfatı rayonlarındandır. Burada sözün əsl mənasında torpağın dilini bilən adamlar çoxdur. Respublikamız üçün ağır olan vaxtlarda biləsuvarlılar torpaqdan əl çəkmədilər, onu əkib-becərdilər, ailə üzvlərini öz halal zəhmətləri ilə saxladılar. Həmin ağır vaxtlarda bir çox yerlərdə əkinçilər pambıqdan üz döndərəndə burada pambığın əkinçilikdə digər bitkilər üçün ən yaxşı sələf olduğunu bilib onu yetişdirmək inadından əl çəkmədilər. O adamlardan biri də Lətif Cəfərov idi.

Lətif kişi sovetlər birliyi zamanında da Biləsuvar (keçmiş Puşkin) rayonunda qabaqcıl pambıqçı kimi tanınıb. Qazandığı yüksək nailiyyətlərə görə Ulu Öndər Heydər Əliyev 1974-cü ildə Biləsuvar rayonunda olarkən onu "QAZ-24" markalı minik maşını ilə mükafatlandırıb. Sonralar dediyimiz çətin zamanlarda da pambıq əkib-becərməkdən əl çəkməyib. Buna görə də rayonda "pambıq Məcnunu" kimi ad çıxarıb. L.Cəfərov hazırda 85 yaşın içindədir. Yaxşı təsərrüfatçı, ailə başçısı olmaqla bərabər, həm də şahmat həvəskarıdır. Payız-qış aylarında boş vaxt tapan kimi rayon mərkəzinə gedib şahmat klubunda öz zehni qüvvəsini sınayır. Rayonun Təzəkənd kəndindən olsa da, torpaq islahatı gedərkən özünə və ailə üzvlərinə Şəhriyar düzündən pay düşmüşdür. Lətif kişi sahəsinin kənarındakı boş yerdə ev, dam-daş tikib. İllər keçdikcə təsərrüfatını genişləndirib. Əlavə torpaq alıb, şum, becərmə traktorları və digər texnikalar əldə edib, dörd oğlu, nəvələri ilə birlikdə bunları səriştə ilə idarə edib. Təkcə əkinçiliklə deyil, heyvandarlıqla da məşğul olub. Söhbətimiz zamanı dedi ki, əslində, kəndli qənddən-çaydan, pal-paltardan savayı, başqa şeyə pul verməməlidir, əti, südü, yağı, qatığı, yumurtanı öz şəxsi təsərrüfatından götürməlidir.

Lətif Cəfərovla budəfəki görüşümüz pambığın becərilməsi, bu sahədə işlərin gedişi ilə bağlı oldu. "Min eşitməkdənsə, bir görmək yaxşıdır" deyib məni yaşadığı yerdən çox da uzaqda olmayan sahəyə apardı. Yamyaşıl pambıq tarlası elə indidən gələcəyin bol məhsulundan xəbər verir. Diqqətlə baxdığımı görüb dedi: "Hə, necədir, xoşuna gəlir? Havalar bizi bir qədər qorxutsa da, Allaha şükür, hər şey yaxşı oldu. Apreldə sahədə normal çıxış aldıq. Bundan sonra isə becərmə işlərini gördük. Gübrəsini vaxtında verdik, kultivasiyasını vaxtında çəkdik, alaqdan çıxardıq. İndi də sulayırıq. Biz pambığın çıxışını da sulama yolu ilə alırıq. Çiyid toxumu səpildikdən dərhal sonra da yaz baraza çəkirik və onunla sızqa su axıdırıq. İslanan çiyid 8-10 günə torpaqdan baş qaldırır. Bu il üçün dediklərim artıq arxada qalmışdır. Gördüyümüz kimi, indi ikinci vegetasiya suyunu veririk. Belə bir məsəl var: "Gərək pambığın başı günəşdə, ayağı suda olsun". Ana təbiət var olsun. Nə qədər lazımdırsa, göydən yerə o qədər işıq və istilik verir. Su isə sahələrə insan əməli, əməyi ilə gəlib çıxır. Biləsuvar rayonu şəraitində bu, başqa yerlərlə müqayisədə daha çox zəhmət, vəsait tələb edir. Çünki bizim yerlərin relyefi eyni deyil. Bəzi yerlərə su çıxarmaq üçün 2-3 pilləli sistemdən istifadə etmək lazım gəlir. Belə ki, su baş kanaldan köməkçi kanala, ondan da başqasına vurulmaqla yerin səthinə çıxarılır. Bu mənada Biləsuvar Rayon Suvarma Sistemləri İdarəsi və su birlikləri işçilərinin əməyini qiymətləndirmək biz fermer və torpaq mülkiyyətçilərinin borcudur. Düzdür, hərdən narazılıqlar da yaranır. Hamı istəyir ki, əkinini tez suvarsın. Amma hər bir işə ədalətlə, vicdanla yanaşmaq lazımdır. Bir az keçir, hər şey qaydasına düşür, hamı yüksək məhsul yetişdirib xeyirini görəndə umu-küsü unudulur, insanda könül xoşluğu yaranır. Bir də bütün nemətlər kimi, su da qədərində olanda yaxşı olur.

Lətif kişi ani olaraq dayanıb fikrini cəmləşdirərək davam edir:

- Nizami Gəncəvi əbəs yerə deməyib ki: "Artıq içiləndə dərd verir su da". Hər kəs buna əməl etsə, israfçılığa yol verilməz, bütün əkinlər su içib bol məhsul yetirər. Bu işdə suçuların da üzərinə mühüm vəzifə düşür. Sudan düzgün istifadə edilmədikdə torpağın tərkibindəki mineral maddələr yuyulub gedir, kollektor-drenaj şəbəkələrində şor suların səviyyəsi qalxır və torpaqlar şoranlaşır. Təcrübəli təsərrüfatçı gülümsəyərək deyir: "Görürsən, bunlar hamısı elmdir. Elmlə helm (təcrübə) birləşəndə nəticəsi də əla olur".

Məlum olur ki, keçən il pambıq əkdiyi 26 hektar sahənin hər hektarından 50 sentnerdən çox məhsul əldə edib. Bu il isə 30 hektarda pambıq əkib. Bundan əlavə, keçən ilin payızında 55 hektara taxıl səpib. Biçini artıq başa çatdırıb. Dəmyə əkin sahələrinin hər hektarından 23 sentner məhsul götürdüyü halda, suvarılan yerlərdə bu rəqəm 52 sentner təşkil edib. Müsahibim onu da dedi ki, Biləsuvar camaatı torpağa çox bağlıdır. Zəhmət də hədər getmir. Kənd təsərrüfatı məhsullarının istehsalı durmadan artır. Növbəlilik, intensiv əkinçilik metodları tətbiq edilməklə hər hektarın məhsuldarlığı yüksəldilir. Son illər rayonda qazanılan uğurlar bunu bir daha təsdiq edir.

Pambıqçılıq sahəsində keçmiş şöhrəti geri qaytarmaq üçün Neftçala rayonunun torpaq mülkiyyətçiləri, fermerləri də əzmlə çalışırlar. Nəticədə bu strateji məhsulun istehsalı ildən-ilə artır. Bu da ilk növbədə son 5-6 ildə kənd təsərrüfatına, onun mühüm sahəsi olan pambıqçılığa diqqət və qayğının, dövlət dəstəyinin artırılması ilə əlaqədardır. Məlum olduğu kimi, xam pambığın 1 kiloqramının qiyməti keçən il 75 qəpik olmuşdur. Eyni zamanda son nəticəyə görə hər kiloqram üçün 10 qəpik dövlət tərəfindən verilən subsidiya mülkiyyətçinin hesab kartına köçürülür. Üstəgəl sahibkara hər hektar üçün 200 kiloqram həcmində güzəştli amafos, karbomid, azot mineral gübrələri verilir. Son illər dövlət xətti ilə kənd təsərrüfatı məhsullarının, o cümlədən pambığın əkilməsi, becərilməsi, yığılması, daşınması, emalı ilə əlaqədar respublikamıza çoxlu sayda müasir maşın-mexanizmlər, texniki avadanlıqlar alınıb gətirilmişdir. Pambıqçılıq rayonlarında "MKT-İK" MMC, "Azərpambıq" MMC, "P-Aqro" MMC və "Aqrolizinq" ASC-nin filialları fəaliyyət göstərir və onlar müqavilə əsasında mülkiyyətçilərə hər cür kömək göstərirlər. Bunlarla yanaşı, pambığın müqəddəratı üçün mühüm rol oynayan suvarma idarələri mövcuddur.

Neftçalaya, buradakı Boyat kəndinə gəlişimizin məqsədi təcrübəli təsərrüfatçı Əlihüseyn Hacıyevlə görüşüb pambıqçılığın indiki qızğın dövründə işlərin gedişi ilə tanış olub yazı hazırlamaq idi. Ə.Hacıyevi çoxdan tanıyıram. Hələ sovetlər birliyi zamanında aqronom kimi uzun müddət pambıqçılıq briqadiri, kolxoz sədri işləyib. Quruluş dəyişiləndən sonra da torpaqdan əl çəkməyib. Özünün və ailə üzvlərinin payına düşən torpağı əkib-becərib. Sonralar mümkün olduqca əlavə torpaqlar alıb, bələdiyyə, dövlət fondu torpaqlarından icarəyə sahə götürüb. Şum traktoru və digər texnikalar əldə edib. Heyvan saxlamağı da unutmayıb. Bunun da hesabına bayramlarda, digər əlamətdar günlərdə kəndin xeyirində-şərində iştirak edib, əlindən gələnköməyi əsirgəməyib.

Prezident İlham Əliyev 2017-ci ildə Neftçalaya səfəri zamanı Əlihüseyn kişinin briqadasında olmuş, onun işini yüksək qiymətləndirmişdir. Bundan ruhlanan təcrübəli pambıqçı daha yaxşı işləyərək, təsərrüfat ilini uğurla başa vurmuş, 50 hektarın hər hektarından 42 sentner "ağ qızıl" əldə etdiyinə görə Prezident onu "İkinci dərəcəli Əmək ordeni" ilə təltif etmişdir. Keçən il isə o, 45 hektardan 313 ton "ağ qızıl" götürmüş, hər hektarın məhsuldarlığını 69,7 sentnerə çatdırmışdır. Cari ildə Ə. Hacıyev 40 hektarda pambıq əkib. Sahələrdə normal çıxış alınıb. Biz orada olanda 2-ci becərməni artıq başa çatdırmışdı. Keçən ilin payızında 30 hektara arpa toxumu səpib. Bu günlərdə biçini başa çatdırıb. Suvardığı sahənin hər hektarından 48 sentner məhsul əldə edib ki, bu da Muğan şəraiti üçün yaxşı göstəricidir.

Əlihüseyn kişi ilə pambıq sahəsinin kənarında görüşürük. Söyüdün kölgəsində dayanıb bizi gözləyir. Beş addım o tərəfdə - söyüd kölgəsindən kənarda yayın qızmar günəşi göydən yerə od ələyir. Sağlamlıq durumunu, işlərinin necə getdiyini soruşuruq. "Ağlamaqla heç vaxt aram olmayıb, - deyir, -amma 2-3 ay bundan əvvəl yaman ağrıyırdım. Sağ olsun həkimlər, yenə gördüyünüz kimi, iş üstəyəm. Bəlkə pambığa, işə-gücə başım qarışdığından azarı-bezarı unutmuşam. Bir az bundan əvvəl sahədə görünən o suçuların yanında idim. Ərazi nümayəndəsi Asif Qəfərovun telefon zəngindən sonra gəldim ki, sizi qarşılayım".

O da köhnə tanış kimi bizim hal-əhvalımızı xəbər alır. Mətləbə keçib pambığın becərilməsindən söhbət salırıq. Bildirir ki, 2-ci kompleks becərməni başa çatdırmaq üzrədir. Heç bir çətinliyi yoxdur. Müqavilə bağladığı "MKT - İK" MMC Neftçala rayon filialı bütün lazımi texnika, mineral gübrələr, işçilərə əməkhaqqı vermək üçün pul vəsaiti ilə onları vaxtlı-vaxtında təmin edir. Hamı istəyir yüksək məhsul yetişdirsin, yaxşı qazanc əldə etsin, ailəsini firavan dolandırsın. Əlihüseyn kişi belə bir məsəl çəkir: "Bilirsiniz, mən sovet vaxtında da pambıqçılıq sahəsində çalışmışam. O zaman vəziyyət tamam başqa idi. Planı yerinə yetirməyən briqadirin və ya kolxoz sədrinin aqibətinin necə olduğunu, yəqin ki, siz də eşitmisiniz. Belə bir məsəl də var idi: "Baxmayaraq ki, pambıq bitkisinin boyu alçaqdır, onun ağacından yıxılan adam sağalmır". İndi isə vəziyyət tamam başqadır. Yaxşı pul qazanmaq üçün yaxşı da işləməlisən, özünə əziyyət verməlisən, necə deyərlər, cəfasını çəkməlisən ki, səfasını görə biləsən. Bundan ötrü dövlət, onun başçısı bizim üçün hər cür şərait yaradıb. Özünüz görürsünüz, təbiət də öz səxavətini əsirgəmir. Belə istilər pambıq üçün vacibdir. Bitkilər yaxşı boy atır, istilər sovkanı məhv edir. Suyumuz da boldur. Rayon suvarma sistemləri idarəsinin rəisi Elçin Əsədov özü, həmçinin işçiləri mütəmadi olaraq sahələrə baş çəkir, bizimlə telefon əlaqəsi saxlayırlar. Çalışırlar ki, növbəlilik əsasında bütün əkinçilər sahələrini suvarsınlar. Bu il qışın mülayim keçməsi, qarın az yağması su ehtiyatlarının nisbətən az olmasına öz təsirini göstərmişdir. Lakin melioratorların, su birliklərinin səyi, bacarığı sayəsində hələlik heç bir ciddi problemlə üzləşməmişik".

Göründüyü kimi, strateji məhsul olan pambıqçılıqda indi mühüm dövrdür. Hər bir aqrotexniki tədbirin vaxtında icra olunması payızda yığılacaq məhsulun çəkisində, keyfiyyətində özünü göstərəcəkdir. Elə buna görə də hər bir torpaq mülkiyyətçisi, fermer çalışır ki, bunlara əməl etsin. Biz də öz növbəmizdə onlara uğurlar diləyib, "qollarınız yorulmasın, məhsulunuz bol olsun" deyirik.

***Seyran CAVADOV, "Azərbaycan"***

# "Star" - yaşı az, uğurları çox

## Fəaliyyət göstərdiyi 9 ay ərzində zavod beynəlxalq standartlar səviyyəsində işlədiyini təsdiqləyib



Əvvəli 1-ci səh.

Çünki bu müəssisə Türkiyədə ölkəmizin 6,3 milyard dollarlıq sərmayəsi ilə istismara verilib.

"Star" Avropa, Yaxın Şərq və Afrika bölgələrinin ən böyük müəssisələrindən biridir. Onun ümumi neft emalı gücü 10 milyon ton təşkil edəcək. Müəssisənin əsas xammal təchizatçısı SOCAR-dır.

"Star" NEZ Azərbaycanın və Türkiyənin indiyədək gerçəkləşdirdikləri qlobal layihələr sırasında önəmli yeri tutur. İki ölkənin digər tərəfdaşlarla birlikdə həyata keçirdikləri nəhəng işlərin təməlində isə Xəzər dənizi, Qara dəniz və Aralıq dənizini birləşdirən "polad kəmər" - Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəməri dayanır. BTC-dən sonra "Şahdəniz" qazını Bakı yaxınlığındakı Səngəçal terminalından Ərzurumadək nəql edən Bakı-Tbilisi-Ərzurum kəməri bu əlaqəni daha da möhkəmləndirdi. Nəhəng enerji layihələrinin gerçəkləşməsi digər sahələrdə də mühüm işlər görməyə imkan yaratdı. Nəqliyyat sektorunda önəmli layihə - Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi həyata keçirildi.

2018-ci ilin iyun ayında istifadəyə verilən TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) da Azərbaycanın və Türkiyənin işbirliyini, əməkdaşlıq və tərəfdaşlığını dünyaya nümayiş etdirdi. Bu, iki ölkənin birgə çəkdiyi 1900 kilometrlik boru xəttidir. "Cənub qaz dəhlizi"nin onurğa sütunu adlandırılan bu kəmər Azərbaycanla Türkiyənin təkcə işbirliyinin, iqtisadi əməkdaşlığının deyil, dünyaya nümunə olan dostluq və qardaşlığının bəhrəsidir. TANAP Azərbaycanın və Gürcüstanın ərazisindən keçən Cənubi Qafqaz Boru Kəmərinin daşıdığı qazı tikilməkdə olan TAP-a (Trans-Adriatik Qaz Boru Kəməri) ötürəcək. TAP isə 2020-ci ildə Azərbaycan qazını Avropaya çatdıracaq.

TANAP-ın açılışından cəmi dörd ay sonra "Star" kimi nəhəng müəssisənin istifadəyə verilməsi birgə həyata keçirilən işlərin miqyasını və dəyərini göstərir.

Prezident İlham Əliyev bununla bağlı demişdir: "Bunların hər biri özlüyündə nəhəng bir layihədir və nəinki ölkələrimiz, xalqlarımız üçün, bölgə, dünya, Avrasiya üçün çox böyük önəm daşıyır. Türkiyə və Azərbaycan birgə səylərlə güclü siyasi iradə nümayiş etdirərək Avrasiyanın enerji və nəqliyyat xəritəsini yenidən cızır. Bunu biz edirik və bu yeni xəritələrin altında bizim imzamız var. Bütün bunları biz birgə səylərlə etdik. Bütün bu layihələr böyük maliyyə yatırımı tələb edən layihədir".

"Star"ın təməli 2011-ci il oktyabrın 25-də Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qoyulub. Zavod Türkiyədə SOCAR-ın "Petkim" neft-kimya kompleksinin yerləşdiyi ərazidə inşa edilib. 2018-ci ilin avqust ayından müəssisədə sınaq məqsədilə xam neft emal olunmağa başlayıb. Zavoda ilk 80 min ton "Azeri Light" nefti də Azərbaycandan gətirilib.

"Star" zavodunda cari ilin sonuna qədər 8 milyon ton xam məhsul emal ediləcək. Ümumiyyətlə, müəssisədə ildə 5 milyon ton dizel yanacağı, 1,6 milyon ton təyyarə yanacağı, 1 milyon tondan çox digər məhsullar buraxılacaq.

Qeyd etdiyimiz kimi, layihənin ümumi sərmayə qoyuluşu 6,3 milyard dollar təşkil edir. Bu investisiyanın 90 faizi artıq yatırılıb. 2021-ci ilədək yönəldilməsi başa çatan investisiya ilə "Star"ın ümumi tutumu artırılacaq. Sonda investisiyanın həcmi 7 milyard dollara çatacaq.

"Star" Türkiyənin ilk Xüsusi Sənaye Zonası elan olunub. Zavod "Petkim" neft-kimya kompleksini nafta və qarışıq ksilenlə tam təmin edəcək. "Star" Türkiyənin dizel yanacağı idxalının 40 faizə düşməsinə imkan verəcək. Ölkənin təyyarə yanacağına olan tələbatını tam ödəyəcək. Həmçinin mayeləşdirilmiş neft-qazın idxal səviyyəsini 70 faizə endirəcək. Zavod neftin qiymətindən asılı olaraq hər il 6-8 milyard dollarlıq ticarət həcmi formalaşdıracaq. Bir sözlə, bu müəssisə Türkiyədə sənayenin, ümumiyyətlə, iqtisadiyyatın inkişafına təkan verəcək.

"Star" NEZ-in yerləşdiyi Əliağa yarımadası daşımalar baxımından strateji əhəmiyyət kəsb edir. Burada "Star"la yanaşı, "Petkim" neft-kimya kompleksi, külək elektrik enerji stansiyası və Egey dənizinin ən böyük limanı olan "SOCAR Terminalı" vahid infrastruktur və dəyər zənciri çərçivəsində fəaliyyət göstərir.

***Flora SADIQLI, "Azərbaycan"***

# Ölkə turizmi haqqında son statistika nədən xəbər verir

Dövlət Statistika Komitəsinin ölkə turizminə aid Dövlət Sərhəd Xidmətinə istinadən yaydığı məlumata görə, cari ilin yanvar-may aylarında Azərbaycana dünyanın 180 ölkəsindən 1 milyon 94,8 min və ya 2018-ci ilin yanvar-may ayları ilə müqayisədə 3,7 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir.



Foto Ağaəli MƏMMƏDOVUNDUR

Gələnlərin 28,5 faizi Rusiya Federasiyası, 26 faizi Gürcüstan, 10,9 faizi Türkiyə, 7,7 faizi İran, 3 faizi Birləşmiş Ərəb Əmirlikləri, hər birindən 1,9 faiz olmaqla Ukrayna və Hindistan, 1,6 faiz olmaqla Böyük Britaniya və Türkmənistan, 1,2 faiz olmaqla Pakistan və İraq, 14,4 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olmuşdur.

Ölkəmizə yanvar-may aylarında gələnlərin sayında daha çox artım Türkmənistan (1,9 dəfə), Misir (1,8 dəfə), Çin (1,8 dəfə), Hindistan (1,7 dəfə), Səudiyyə Ərəbistanı (1,7 dəfə), Böyük Britaniya (42,3 faiz), Cənubi Koreya (31,4 faiz), Yaponiya (30,1 faiz), Almaniya (28,0 faiz), Kanada (27,7 faiz), Polşa (23,4 faiz) və Gürcüstan (22,7 faiz) vətəndaşları arasında qeydə alınmışdır.

2019-cu ilin yanvar-may aylarında Avropa İttifaqı ölkələrindən və MDB-dən gələnlərin sayı isə müvafiq olaraq 54,4 min (keçən ilin müvafiq dövründəkindən 27,8 faiz çox) və 380,8 min (3,8 faiz çox) nəfər olmuşdur.

5 ay ərzində xarici ölkələrə gedən Azərbaycan vətəndaşlarının sayına gəldikdə, bu göstərici də əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 25,5 faiz artaraq 2 milyon 65,9 min nəfərə çatmışdır. Ölkə vətəndaşlarının 39,5 faizi İrana, 27 faizi Gürcüstana, 18,3 faizi Rusiya Federasiyasına, 9,8 faizi Türkiyəyə, 5,4 faizi digər ölkələrə getmişdir. Bu dövrdə İrana gedən Azərbaycan vətəndaşlarının sayı 73,6, Gürcüstana gedənlərin sayı 10,6 faiz, Rusiya Federasiyasına gedənlərin sayı 5,6, Türkiyəyə gedənlərin sayı 0,1 faiz artmışdır.

# Model peyk müsabiqəsinin qalibləri müəyyən olunub

"Azərkosmos" ASC və Azərbaycan Respublikası Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə Azərbaycanda növbəti dəfə tələbələr arasında "CanSat Azərbaycan 2019" model peyk müsabiqəsinin final mərhələsi keçirilib.

Cari ilin yanvarından etibarən elan edilən "CanSat Azərbaycan 2019" müsabiqəsində ölkənin 15 universitetindən 38 komanda qeydiyyatdan keçib. Builki müsabiqədə region universitetlərindən olan Sumqayıt Dövlət Universiteti və Azərbaycan Texnologiya Universiteti də iştirak edib. Komandalar əsasən mexanika və kompüter mühəndisliyi, aerodinamika, proseslərin avtomatlaşdırılması, riyaziyyat, fizika və sair texniki ixtisaslar üzrə təhsil alan tələbələrdən ibarət olub.

Budəfəki final mərhələsinə müsabiqənin "İlkin Hesabat Sənədi"nin təqdim olunması (PDR-Preliminary Design Review) və "Layihələndirmə" mərhələlərini uğurla bitirən 8 universitetdən 11 komanda vəsiqə qazanıb.

Finalçılar hazırladıqları 350 qramlıq model peykləri raketlərin daxilinə yerləşdirib. Hündürlüyü 120 santimetr, çəkisi 1000 qram və 100 Ns dartı qüvvəsinə malik olan daşıyıcı raketlər 300 metr yüksəkliyə qədər qaldırılıb. Səmaya buraxılan raketlərdən ayrılan peyk modelləri vasitəsilə yerüstü stansiyaya siqnal - telemetriya ötürülüb və ərazinin hündürlüyünü, temperaturunu və təzyiqini müəyyən etmək mümkün olub.

İkigünlük final mərhələsinin növbəti günü - "Peyk modellərinin uçuşsonrası hesabatı"nın təqdim olunması mərhələsində komandalar yerli və beynəlxalq üzvlərdən ibarət münsiflər heyəti tərəfindən müsabiqənin meyarlarına uyğun olaraq qiymətləndirilib.



Qiymətləndirmənin yekununa əsasən, final mərhələsində hazırladıqları peyk modelini uğurla səmaya buraxan ADA universitetinin "CanADA" komandası müsabiqənin qalibi olub. İkinci yerin qalibi Bakı Ali Neft Məktəbinin "Can of Duty", üçüncü yerdə isə Bakı Mühəndislik Universitetini təmsil edən "Caucasus_Sat" komandası qərarlaşıb.

Məlumat üçün bildirək ki, ikinci ildir baş tutan "CanSat Azərbaycan" müsabiqəsinin Azərbaycanda keçirilməsi gənclərin kosmik texnologiyalar sahəsinə marağının artırılmasına xidmət edir, eləcə də müsabiqə qaliblərinə gələcəkdə ölkəmizi bu tipli beynəlxalq yarışlarda layiqincə təmsil etmək imkanı verir.




# Cümhuriyyətin ilk əməliyyat polisi

101 il bundan əvvəl yaranmış Azərbaycan polisinin ilk nümayəndələrindən biri də Gəncə Şəhər Polis İdarəsinin ilk əməliyyat müvəkkili işləmiş, 1938-ci ildə repressiya olunan Mədət Məşədi Kərim oğlu Quliyevdir. Belə vətənpərvər ruhlu polis işçilərinin sayəsində AXC-nin Daxili İşlər Nazirliyi və onun polis orqanları 1918-1920-ci illəri əhatə edən fəaliyyəti dövründə ilk müstəqil dövlətimizin milli maraqlarının müdafiəsində böyük rol oynamışdır.

1918-ci ilin əvvəllərində Bakı quberniyası Xalq Komissarları Sovetinin sədri S.Şaumyan göstəriş vermişdi ki, Gəncədə hərbi alayların ixtiyarında olan bütün silahlar ermənilərin əlində cəmləşdirilsin. Əslində isə Zaqafqaziya Seyminin qərarı belə idi ki, çar dönəmindən Gəncədə yerləşən hərbi hissələrin, eləcə də 216-cı alayın silah və sursatları yeni yaradılan Gəncə müsəlman alayına verilsin. Amma ermənilər buna mane oldular, hər cür hiylə və üsuldan istifadə edərək 216-cı alayın silahlarını öz əllərinə keçirdilər. Sonra da əvvəlki ənənələrinin coğrafiyasını genişləndirərək Gəncədə azərbaycanlıların kütləvi qırğınlarını təşkil etmək üçün hazırlıq işləri aparmağa başladılar. Təpədən-dırnağadək silahlanmış ermənilər müsəlman məhəllələrinə hücum edir, iğtişaşlar törədirdilər. Demək olar ki, şəhərdə hər gün ermənilərlə azərbaycanlılar arasında qanlı toqquşmalar baş verirdi. Bakı komissarlarından olan Arsen Əmiryan isə bu iğtişaşlara əsassız olaraq vətəndaş müharibəsi statusu verməyə çalışırdı. Azərbaycan vətəndaşı olmayan bolşevik-erməni qruplaşması Bakını zəbt etdikləri kimi, Gəncədə də hakimiyyəti boğmağa çalışırdılar. Şəhərdə baş verən gözlənilməz hadisələr dövrün digər vətənpərvər gəncləri kimi Mədətin də diqqətini cəlb edir və hadisələrin iştirakçısına çevirirdi. Belə çətin anlarda gənc Mədət Balabağmanda təşkil olunan könüllü özünümüdafiə dəstəsinin başçısı kimi əhalinin erməni terrorundan və bolşevik-daşnak hücumlarından müdafiə olunmasında əlindən gələni əsirgəmirdi. Mədət hələ gimnaziyada oxuduğu illərdən haqqı-ədaləti müdafiə etməyi çox sevirdi. Gəncənin qədim məhəllələrindən sayılan Balabağmanın ağsaqqallarından olan atası Məşədi Kərim kişi onu belə böyütmüşdü.

Süquta uğramış çar imperiyasının başsız qalmış ordu əsgərləri Türkiyənin Şərq cəbhəsindən evlərinə qayıdarkən (1918-ci il 9 yanvar) Gəncə Müsəlman Komitəsinin təşəbbüsü ilə onları Şəmkir stansiyası yaxınlığında tərksilah edənlər arasında Mədət Quliyev də var idi. Ön vaqondakı əsgərlərdən silahları təhvil alarkən Mədətin yanında Gəncə gimnaziyasının tələbəsi Məhəmməd Rəfiyev, gimnaziyanın sinif müəllimi Yaqub Rəfizadə və İsfəndiyar Mehdizadə ermənilər tərəfindən açılan top atəşi nəticəsində həlak olurlar. Mirzə Əliəkbər Hüseynzadə ağır yaralanır. Təsadüf nəticəsində sağ qalan Mədət həmyaşıdı Məhəmmədi güllə yağışı altından çıxararkən öz həyatını təhlükə qarşısında qoyur. Nə qədər çalışsa da, Məhəmməd sağ qalmır. Silahların təhvil alınmasında, yaralıların xəstəxanalara yerləşdirilməsi və imkanlı adamlardan kimlərəsə həvalə olunmasında Mədət əlindən gələni əsirgəmir.

Bir aya yaxın davam edən "eşelon davası"nda Mədətin fədakarlığı Gəncə Müsəlman Komitəsi rəhbərlərinin diqqətindən yayınmır. "Dava" başa çatan kimi Nağı bəy Şeyxzamanlının tövsiyəsi ilə o, "Əksinqilab ilə Mübarizə Təşkilatı"nın sıralarına qoşulur.

1918-ci il iyulun 2-də Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədri və daxili işlər naziri Fətəli xan Xoyskinin əmri ilə polis orqanları yaradılanda Mədət Quliyev şəhər polis sistemində işləməyi özünə şərəf bilir. Cümhuriyyətin "Əksinqilabla Mübarizə Təşkilatı"nın dəstəyi ilə Gəncə Şəhər Polis İdarəsində baş əməliyyatçı vəzifəsinə təyin edilir.

Avqustun sonlarında, Andranikin köməkçisi general Dro Konanyanın tapşırığı ilə 100 nəfərdən çox silahlı erməni Gəncədə iğtişaşlar törətmək, erməniləri üsyana qaldırmaq, müsəlmanları qırıb Milli hökumət quruculuğuna mane olmaq istəyirdi. Bundan bir neçə ay əvvəl həmin silahlıların bir qrupu Gədəbəy tərəfdən Şəmkir istiqamətinə hərəkət edərkən Mədətin xəbərdarlığı ilə gədəbəyli Məcid ağanın dəstəsi onların qarşısını almışdı. İstəyinə nail ola bilməyən general Dro neçə vaxt idi ki, özünə yer tapa bilmirdi. Odur ki, bu dəfə Həsənnənə və Həsənbaba dağlarının yanından keçərək Qabaqtəpə, Xoşbulaq və Zağalı kəndlərinin müsəlman əhalisini qətlə yetirməyi, Yuxarı Daşkəsən və Bayan kəndindəki ermənilərlə birləşib, oradan Gəncəyə hücum edib, erməniləri üsyana qaldırmağı planlaşdırır.

Bu xəbər Mədət Quliyevə çatır.

Mədət qabaqtəpəli dostu Tərlan Məmmədi yanına çağırtdırıb tapşırır ki, "qapında xeyli qoyun-quzun var, cavan uşaqlar otarır, onlara etibar eləmirəm, bu gündən özün qalxarsan Səbətkeçməzin üstündəki Çalmalı dağına, guya oralarda qoyun otarırsan, gözün yolda-izdə olsun, ermənilər görünən kimi kəndə xəbər edərsən. Çanaxçı Sarı Qafarla şəmkirli Morul Məmməd öz dəstəsi ilə dağın döşündə sənin işarəni gözləyəcəklər".

Mədət Quliyev sonra Sarı Qafarla görüşür, Tərlan Məmmədə verdiyi tapşırığı ona da açıqlayıb deyir: "Daşnaklar Səbətkeçməzdə dərənin dibi ilə yolu yarı edəndə Tərlan Məmməd səs-küy salacaq, onda sənin adamların arxadan, Morul Məmmədin dəstəsi qabaqdan, səsə gələn kənd camaatı da sağdan-soldan... öz işinizi görərsiniz".

General Dronun əmri ilə yüzə yaxın erməni silahlısı avqustun axırında Göyçədəki düşərgələrindən Dəstəfur bölgəsinə istiqamət götürür. Həsənnənə və Həsənbaba dağlarının arasından keçib gələn yarı atlı, yarı piyada dəstəni Tərlan Məmməd uzaqdan görür və onların hərəkətini ləngitmək üçün yollarının üstünə iri qaya parçaları dığırlayır, kəndə atlı çapar göndərir...

Daşnaklar Səbətkeçməzi çətinliklə yarı edəndə qəfil atışmada geri qaçanları Morul Məmmədin, irəli gedənləri Sarı Qafarın adamları atəşə tutur. Dağlara, meşələrə qaçmaq istəyən daşnakları isə əliyabalı kənd camaatı "qarşılayır".

Bir erməni zabiti aradan salamat çıxmaq istəyəndə Morul Məmməd yanındakılara deyir: "Onu diri tutmasam, Mədət ləlam məndən inciyər!". Düşür onun dalınca, erməni qaçır, amma Xoşbulağa çıxhaçıxda onu yaxalaya bilir, nəfəsini kəsib, silahını götürüb geri qayıdır.

Gəncəlilər sonralar bilirlər ki, qabaqtəpəli Tərlan Məmmədin adı ilə dildəağızda gəzən Səbətkeçməz döyüşlərinin baş qəhrəmanı gəncəli Mədətdir. Bundan iki ay sonra cümhuriyyətin daxili işlər naziri Fətəli xan Xoyskinin əmri ilə Mədət Quliyev Gəncə həbsxanasına baş nəzarətçi təyin edilir. Təəssüf ki, cümhuriyyətin ömrü qısa olur. Milli hökumət 1920-ci ilin aprelində XI Ordu tərəfindən süquta uğradılır.

Bu zaman bolşeviklər kadr çatışmazlığı ucbatından bəzi peşəkar və təcrübəli işçilərə, o cümlədən Mədət Quliyevə hələlik dəymirlər. O, 1922-ci ilə kimi bu vəzifədə işləyir. İşini mükəmməl bildiyinə görə onu hətta irəli çəkirlər, daha məsul vəzifəyə yüksəldirlər: Gəncə İnqilab Komitəsi özlərinə tabe edə bilmədikləri məşhur qaçaq Dəli Alının və Kürboyu ormanlarda qaçaqların qurşunundan ötüşmək üçün Mədəti 1922-ci ildə Qasım İsmayılov (indi Goranboy) Rayon Milis İdarəsinə rəis təyin edirlər. Bir müddətdən sonra isə "Gəncə üsyanı"nın əsas iştirakçılarından biri - Gəncə Qəza Komitəsinə və bolşeviklərə qan udduran Qaçaq Məmmədqasımla və onun qohum-əqrabası ilə üz-üzə qoymaq üçün Samux rayon Milis İdarəsinə rəis təyin edirlər. Gəncə İnqilab Komitəsinin qapalı iclaslarında Mədət Quliyevdən Qaçaq Məmmədqasımın, Sarı Qafarın, Şəmkir qaçaqlarının başçısı Ramazan oğlu Rüstəmin və Təhməzin, habelə onların dəstə üzvlərinin, patron və ərzaq sarıdan gizli kömək edənlərin, bir sözlə, qaçaqlarla əlaqəsi olan hər kəsin tutulub tezliklə ÇK-ya təhvil verilməsi tələb olunsa da, Mədət bu işə qol qoymurdu. İnqilab Komitəsi Qaçaq Məmmədqasımın yerini Çeyrançöldə, ya Kür qırağı ormanlarda öyrənib-biləndə dərhal həmin əraziyə hücum əməliyyatı hazırlayırdı. Hücum əməliyyatının vaxtı dəqiqləşəndə milis rəisi Qaçaq Məmmədqasıma və Şəmkir qaçaqlarının başçısı Ramazan oğullarına yerlərini dəyişmək üçün qardaşı Söyün, ya da Qulu vasitəsi ilə xəbər çatdırırdı.

İnqilabi hökumətin yüz faizlik qələbəyə hesablanan əməliyyatları hər dəfə uğursuzluqla nəticələnəndə, ordu əsgərləri kütləvi şəkildə itkiyə məruz qalanda Qəza Komitəsinin rəhbərləri əvvəl bir-birindən, sonra da Mədət Quliyevdən şübhələnirlər. Az müddətdə məsələni yerli satqınların vasitəsi ilə tam dəqiqləşdirirlər. Bundan sonra NKVD işçiləri Mədət Quliyevi işdən çıxarıb, həbs etməyi planlaşdırırlar. Çox keçmir ki, bunun üçün əsas tapılır: Samux sakini Səttar münaqişə zəminində həmkəndlisini öldürür. Aylarla gedən istintaqdan sonra güllələnmə veriləcəyi söylənilən Səttarın məhkəmədə cəzası 10 il azadlıqdan məhrumetmə ilə yekunlaşır.

NKVD müstəntiqləri Səttarın güllələnmə cəzasının 10 illik həbslə əvəzlənməsində Mədət Quliyevi günahkar bilirlər. Guya Mədət Quliyev müqəssirin atası Cabbar kişidən küllü miqdarda rüşvət alıb, məhkəmə işçiləri ilə danışığa gedib... Buna görə Azərbaycan Dövlət Siyasi İdarəsinin əməkdaşları 1923-cü ildə Mədət Quliyevi həbs edirlər. İki il Bakıda NKVD zirzəmilərində işgəncələrə məruz qalandan sonra onun "cinayət işi" baxılmaq üçün Gəncə Dairə Məhkəməsinə göndərilir. "Cinayət işi"nin məhkəmə protokolları ilə tanışlıqdan məlum olur ki, hakim Baxşəli Adıgözəlovun sədrliyi ilə keçən məhkəmə iclasında Mədət Quliyevin haqqında deyilənlər sübuta yetirilmədiyindən o, 1925-ci ildə azadlığa buraxılır.

Bir ildən çox işsiz qalan Mədət Quliyev Xoşbulaq massivinə meşə nəzarətçisi düzəlir. Mədətin məhkəmələrdən salamat qurtarmağını, belə bir işə düzəlməyini həzm edə bilməyən bolşeviklər onun hər addımına göz qoyurlar. Hansı yolla olursa-olsun onu aradan götürməyə çalışırdılar. Günlərin birində onunla birlikdə Xoşbulaqda meşə nəzarətçisi işləyən Karapet Mirzoyanın meyiti yol kənarında tapılanda NKVD əməkdaşları üçün əlverişli məqam yaranır. Dərhal Mədəti dövrün ciddi cəza tədbirlərindən olan səsvermə hüququndan məhrum edirlər. Azərbaycan Dövlət Siyasi İdarəsinin (DSİ) məsul işçisi, milliyyətcə erməni Davud Asaturovun (Asaturyan) rəhbərliyi ilə Mədət Quliyev həbs olunur. Davud Asaturyan bu "ölüm işi"ni daha da "zənginləşdirmək" üçün Mədət Quliyevi yeni quruluşa qarşı daim mübarizə aparan şəmkirli "bandit" Morul Məmmədə, Pirverdiyə, dəstəfurlu Sarı Qafara və başqa qaçaqlara silah verməkdə, onlarla dostluq münasibətləri saxlamaqda günahlandırır. Lakin Mədətin xətrini istəyən dostları, tanışları bu haqsızlığın qarşısını almaq üçün əllərindən gələni edib Mədət Quliyevin azadlığa buraxılmasına nail olurlar.

Mədət ailəli idi, on il olardı ki, sevib-seçdiyi Xədicə xanımla mehriban dolanırdı, iki övlad atası idi, oğlu Qəzənfərin 9, qızı Qiyafənin 6 yaşı vardı. Siyasi İdarə işçilərinin onu izləməsindən şübhələnmişdi. Odur ki, işini bir az ehtiyatlı görürdü - günün çoxunu evdə - uşaqları ilə bir yerdə olurdu. Hektara yaxın üzüm bağı, 40-45 qoyun-quzusu, bir atı, bir sağmal camışı vardı. Hərdən boş vaxtlarını bağda keçirirdi, axşamtərəfi qapı-qonşularla söhbətləşməyi, hal-əhval tutmağı çox sevirdi. Ancaq ermənilərin müsəlman məhəllələrinə arasıkəsilməz təcavüzlərini eşidəndə dayana bilmirdi. Dərhal qara atını yəhərləyər, könüllülərdən qalma dost-tanışı başına yığıb quldurların "dərsini" verməyə gedərdi. Ümumiyyətlə, Mədət Quliyev milli ideyalarla yaşadığı üçün bolşeviklər onu çox təhlükəli hesab edirdilər. Odur ki, Gəncə erməniləri, xüsusilə bolşeviklərlə əlbir olan daşnaklar insanlarda milli mənlik və vətənpərvərlik hissini öldürmək üçün dəridən-qabıqdan çıxırdılar. İğtişaş törətmək, kimi isə aradan götürmək istəyəndə Mədət Quliyev kimi güclü bir şəxs onlara mane olurdu. Bütün bunlara son qoymaq, habelə məşhur qaçaq Sarı Qafarla, Morul Məmmədlə, İsax Salahovla, Ramazan oğulları ilə, samuxlu Məmmədqasımla əlaqəsinə, əksinqilabi fəaliyyətinə görə 1930-cu il noyabrın 30-da Dövlət Siyasi İdarəsinin əməkdaşları Mədət Quliyevi növbəti dəfə həbs edirlər.

Dövlət Siyasi İdarəsində işgəncələrə məruz qalan, iki aydan artıq aramsız dindirilən Mədət Quliyevin "497 №-li cinayət işi"nin protokollarından məlum olur ki, həbsi də, istintaqı da DSİ-nin əməkdaşı Sarkisov soyadlı şəxs icra etmişdir. Mədət Quliyevin işinin istintaqı 1931-ci il fevral ayının 16-da başa çatmış, bundan bir gün sonra o, Fövqəladə Komissiyanın qərarı ilə güllələnmişdir.

Gəncə Şəhər Baş Polis İdarəsinin istər təqaüddə olan veteranları, istərsə də bu gün xalqın asayişini ləyaqətlə qoruyan əməkdaşları söhbətlərdən nağıl qəhrəmanını xatırladan Mədət Quliyevi daim yaxşı əməliyyatçı, işgüzar, vətənpərvər və peşəkar polis işçisi kimi xatırlayırlar.

* * *

Azərbaycan Xalq Cümhuriyyətinin fəallarından olan Mədət Məşədi Kərim oğlu Quliyevə SSRİ Ali Soveti Rəyasət Heyətinin "1930-1940-cı illər və 1950-ci illərin əvvəllərində baş vermiş repressiyalara münasibətdə ədalətin bərpa edilməsinə dair əlavə tədbirlər haqqında" 16 yanvar 1989-cu il tarixli fərmanına əsasən bəraət verilmişdir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

Yeni nəşrlər

# Məkrli erməni siyasəti faktlarla sübuta yetirilib

1920-ci il aprel ayının 27-də Azərbaycan Xalq Cümhuriyyətinin ərazisi XI Qırmızı Ordu tərəfindən işğal olundu. Bu tarix Azərbaycanda uzun illər sovet hakimiyyətinin qurulması günü kimi bayram edilmişdir. Tarix bu cür təhrif olunmuşdur.

Hazırda 27 aprel günü və həmin ərəfədə baş verən olaylar müasir dövrdə tarixşünaslığın prioritet sahələrindən biri kimi yeni yanaşma tələb edir. Bu yanaşmada əsas məsələ işğal faktıdır. Torpaqlarımızın 20 faizi Ermənistanın silahlı dəstələri tərəfindən işğal edilmişdir. Ona görə də Azərbaycanın 1920-ci ildə sovet ordusu tərəfindən işğalı ilə əlaqədar olaraq elmi-tədqiqat işlərinin aparılmasına ciddi ehtiyac duyulmuşdur. Belə tədqiqat işlərindən biri də AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, dosent Əzizə Ənvər qızı Nəzərlinin institutun Elmi Şurasının qərarı ilə çap olunmuş "Армянский след в бесчинствах XI Красной армии в Северном Азербайджане (1920-1921 гг.)" ("Şimali Azərbaycanda XI Qırmızı Ordunun işğalçı hərəkətlərində erməni izi (1920-1921-ci illər)") adlı monoqrafiyasıdır.

Çoxsaylı elmi əsərlərin və dörd monoqrafiyanın müəllifi olan Əzizə Nəzərlinin bu monoqrafiyası sovet işğalı zamanı XI Qırmızı Ordunun tərkibində qulluq edən erməni hərbçilərin məqsədli şəkildə Azərbaycana qarşı törətdikləri əməllərindən bəhs edir, özbaşınalıqların, talanların, əhalinin xüsusi mülkiyyətinin, əşyalarının müsadirə edilməsi məkrli erməni siyasətinin tərkib hissəsi olduğunu göstərir. Ə.Nəzərlinin bu mövzuya müraciət etməsi onun vətəndaşlıq mövqeyindən irəli gəlir və bu mövzu ilk dəfədir ki, alimin monoqrafiyasında öz əksini tapmışdır.

Monoqrafiyanın elmi redaktoru tarix üzrə fəlsəfə doktoru, dosent İ.Niftəliyev, rəyçilər tarix üzrə elmlər doktoru V.Abışov, tarix üzrə fəlsəfə doktoru, dosent N.Məmmədzadədir.

Monoqrafiya 2 fəsildən ibarətdir. Müəllif çoxsaylı arxiv və dövlət sənədlərindən, ordu və dövlət rəhbərlərinin yazışmalarından, dövrü nəşrlərdən və elmi ədəbiyyatdan istifadə edərək aprel işğalından sonrakı bir il ərzində XI Qırmızı Ordunun və onun tərkibindəki ermənilərin zorakılıqlarını faktlarla sübut etmişdir. Əsər müəllifin yüksək analitik təhlil bacarığı ilə yazılmışdır. Dili sadədir, oxunaqlıdır.

Monoqrafiyada Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivindən və Azərbaycan Respublikasının Dövlət Arxivindən istifadə edilmiş sənədlər Əzizə Nəzərli tərəfindən ilk dəfə elmi dövriyyəyə gətirilmişdir.

Sovet işğalı nəticəsində Azərbaycan öz müstəqilliyini itirdi. Cümhuriyyət liderlərinin bir hissəsi güllələndi, bir hissəsi mühacirət həyatı keçirməyə məcbur oldu, bəziləri isə XI Qırmızı Ordu içərisinə yerləşdirilmiş erməni terrorçuları tərəfindən öldürüldü. Vəziyyətdən istifadə edən ermənilər Gəncə, Qarabağ, Şamaxı və digər qəzalarda xüsusi canfəşanlıq və qəddarlıqla azərbaycanlı əhalinin başına müsibətlər gətirdilər.

1918-ci ildə Bakı Soveti ordusunun 80 faizi ermənilərdən ibarət idi. 1920-ci il aprel işğalı zamanı da ordunun tərkibindəki ermənilərin faizi buna yaxın idi. Yeni bolşevik hakimiyyəti ermənilərə arxalanırdı. Azərbaycanda sovet




hakimiyyətini quranlar içərisində Bakı kommunası ilə bağlı olan A.Mikoyan, L.Mirzəyan kimi daşnaklar azərbaycanlılara qarşı soyqırımın fəal iştirakçıları idilər.

Monoqrafiyada qeyd olunduğu kimi, ordu rəhbərləri etiraf edirdilər ki, ermənilər rus əsgərləri arasında təbliğat aparır, onları azərbaycanlıların üzərinə yönəldirdilər. Hərbçilərin bir çox özbaşınalıqları da bundan irəli gəlirdi.

İnanırıq ki, Əzizə Nəzərlinin "Şimali Azərbaycanda XI Qırmızı Ordunun işğalçı hərəkətlərində erməni izi (1920-1921-ci illər)" adlı monoqrafiyası alimlərin, bu sahədə çalışan mütəxəssislərin, eləcə də ictimaiyyətin marağına səbəb olacaqdır.

***Aypara RÜSTƏMOVA,***
***tarix üzrə fəlsəfə doktoru, dosent***

# "AzerTelecom" ölkəmizin Regional Rəqəmsal Mərkəzə çevrilməsi üçün proqram icra edir

Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral (backbone) internet provayder şirkəti "AzerTelecom"un baş icraçı direktoru Fuad Allahverdiyev İsveçrənin Sürix şəhərində keçirilmiş İsveçrə-Azərbaycan Biznes Forumunda "Azərbaycanda rəqəmsallaşma prosesləri və "Azerbaijan Digital HUB" proqramının bu proseslərə töhfəsi" mövzusunda çıxış edib.




Fuad Allahverdiyev çıxışında dördüncü sənaye inqilabı şəraitində rəqəmsallaşma proseslərinin Azərbaycanda da sürətlə getdiyini, Prezident İlham Əliyev tərəfindən İKT sektorunun dayanıqlı inkişafı istiqamətində müxtəlif dövlət proqramları, sərəncam və fərmanların qəbul edildiyini qeyd edib.

O, "AzerTelecom" şirkətinin hazırda icra etdiyi "Azerbaijan Digital HUB" proqramı barədə məlumat verərək bu proqramın ölkənin İKT, telekommunikasiya sektorunun inkişafı, rəqəmsallaşma proseslərinə mühüm töhfə verəcəyini bildirib. "Digital HUB" proqramı ölkə daxilində dayanıqlı infrastruktur quruculuğunu, Avropa ilə Asiya arasında rəqəmsal telekommunikasiya dəhlizinin (Rəqəmsal İpək yolu) yaradılmasını, Trans-Xəzər magistralının çəkilişini, ölkəmizdə regional Data Mərkəzin tikintisini və Azərbaycanın Qafqaz, MDB, Orta və Cənubi Asiya, Yaxın Şərq və ətraf regionlar üçün Regional Rəqəmsal Mərkəzə çevrilməsini və rəqəmsal ekosistemin formalaşmasını nəzərdə tutur" deyə Fuad Allahverdiyev bildirib.

Qeyd olunub ki, "Digital HUB" proqramı Avropa və Asiya ölkələri arasında əməkdaşlıq əlaqələrinin qurulmasına xidmət edəcək, iki qitənin müxtəlif dövlətlərinin telekommunikasiya və kontent operatorlarının əməkdaşlığı, biznes əlaqələrinin daha da genişlənməsi üçün təməl olacaq. Azərbaycan bu proseslərdə mərkəzi ölkəyə çevriləcək və proqram çərçivəsində rəqəmsal telekommunikasiya dəhlizinin qurulması bir çox ölkələrdə rəqəmsallaşma proseslərinin sürətlənməsinə töhfə verəcək.

İsveçrə-Azərbaycan Biznes Forumu İsveçrə Konfederasiyasının Sürix şəhərində İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycan Respublikasının İsveçrə Konfederasiyasındakı səfirliyinin və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun təşkilatçılığı ilə iyunun 27-də keçirilib.

"AzerTelecom" Azərbaycanın, ümumilikdə isə Cənubi Qafqaz regionunun ən iri telekommunikasiya operatorlarından biridir və ölkənin ilk mobil operatoru və ən sürətli mobil internet provayderi olan "Bakcell" şirkətinin törəmə müəssisəsidir. "AzerTelecom" 2008-ci ildə təsis edilib və telekommunikasiya sektorunda yerli və xarici şirkətlərə müxtəlif qabaqcıl xidmətlər təqdim edir. "AzerTelecom" hazırda Azərbaycanın sahib olduğu Enerji və Nəqliyyat Mərkəzi statuslarına əlavə olaraq ölkənin Regional Rəqəmsal Mərkəzə çevrilməsi üçün "Azerbaijan Digital Hub" proqramını icra edir. Proqram Azərbaycanın Milli İT və Milli İnnovasiya strategiyası üçün mühüm təməl yaradır və rəqəmsallaşmanın sürətlənməsinə, rəqəmsal iqtisadiyyata çevik transformasiyaya, start-apların, İT arxitekturasının inkişafına mühüm töhfə verəcək. Proqram ölkənin İKT sisteminin ən qabaqcıl dünya standartları səviyyəsinə çatdırılmasına, ölkənin beynəlxalq reytinqlərdə daha öncül sıralara çıxmasına şərait yaradacaq.

***"Azərbaycan"***

# Paytaxtda yeni ekoloji layihə başlayır

Paytaxtımızı daha da gözəlləşdirmək, göz oxşayan məkana çevirmək məqsədi ilə Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən yeni layihə - bərk məişət tullantılarının yığılması, daşınması və çeşidlənməsinin ən müasir səviyyədə təşkil edilməsi konsepsiyası həyata keçirilir.

Bununla əlaqədar bu sahədə böyük təcrübəyə malik Böyük Britaniyanın tanınmış Mott MacDonald şirkəti ilə müqavilə bağlanmış və ilkin olaraq Nərimanov rayonunda bu işlərə sinaq kimi başlanmışdır.

İyul ayının 10-dan etibarən konsepsiyanın əsas mərhələsinin həyata keçirilməsinə start veriləcək. Bununla bağlı hər məhəllədə məişət tullantıları üçün yaradılan meydançalara yeni, müasir tipli konteynerlər quraşdırılır.




Quraşdırılan konteynerlər 2 rəngdə - yaşıl və narıncı rəngdə olacaqdır. Narıncı konteynerə kağız, karton, şüşə, metal və plastik tullantılar, yaşıl konteynerə isə digər tullantılar atılacaq. Sakinlərin rahatlığı üçün ilkin mərhələdə hər mənzilə 2 cür yaşıl və narıncı çeşidləyici paketlər paylanacaq.

Bu işin görülməsi şəhərimizin təmiz saxlanılmasına, gözəlləşməsinə, ətraf mühitin və sağlamlığımızın qorunmasına, yeni ekoloji, sanitar mədəniyyətin formalaşmasına və iqtisadi səmərə əldə olunmasına xidmət edəcək.

Bununla əlaqədar olaraq Nərimanov rayonunun sakinlərinə proseslərin izah edilməsi məqsədi ilə müvafiq qurumların nümayəndələri məhəllələrdə görüşlərə başlayır, bloklara, həyətlərə, binalara izahedici reklamlar yapışdırılır, mənzillərə broşurlar paylanılır. Gələcəkdə bu işlər digər rayonlarda da aparılacaqdır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

